# Türkiyə fəzaya ilk astronavtını göndərəcək



**Gələn il Türkiyədə ilk astronavt namizədin seçimləri keçiriləcək.**

"Report" NTV-yə istinadən xəbər verir ki, Türkiyə Uzay Agentliyinin (TUA) sədri Sərdar Hüseyn İldırım bununla bağlı ABŞ-ın "SpaceX" və Rusiyanın "Soyuz" şirkətləri ilə danışıqlar apardıqlarını bildirib. Razılaşma əldə ediləcək şirkət Türkiyədə 7 aylıq təlim keçəcək və iki nəfər namizəd seçimini aparacaq. Təlimlərdən sonra həmin iki namizəddən biri seçilərək kosmosa göndəriləcək. Türkiyəli astronavtın azı 1 həftə kosmosda qalacağını qeyd edən TUA rəhbəri həmin müddət ərzində elmi tədqiqatlar aparılacağını da əlavə edib: "Ona görə də astronavt namizədi elm adamlarından olacaq".

# Boksçumuz dünya çempionu oldu




**Azərbaycan boksçusu Alfonso Dominges Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında final görüşünə çıxıb.**

86 kq çəki dərəcəsindəki həlledici qarşılaşmada rəqib braziliyalı Keno Maçado olub. Dominges 3:2 (28:29, 29:28, 29:28, 30:27, 28:29) hesabı ilə qalib gələrək, karyerasında ilk dəfə dünya çempionu olub. Dünya çempionuna kəmər və 100 000 ABŞ dolları, bürünc medalçılara 25 000 dollar mükafat verilib.


№ 204 (5486), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 noyabr 2021-ci il (şənbə)






# Şəhid Cəbrayıl Dövlətzadənin anası parlamentdə işlə təmin olunub

**Məlum olduğu kimi, ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, dövlətin qayğısı ilə əhatə olunurlar.**

Milli Məclis tərəfindən də şəhid ailələri və qazilərlə müntəzəm görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür, şəhidlərin ailə üzvlərinin və qazilərin Milli Məclisdə işlə təmin olunmasına xüsusi önəm verilir. Milli Məclisin Mətbuat və ictmaiyyətlə əlaqələr şöbəsindən "Şərq"ə verilən məlumata görə, Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Milli Məclisin sədri Sahibə Qafarovanın müvafiq əmrinə əsasən, general-mayor Polad Həşimovun qisasını alan əsgər kimi Vətən müharibəsi tarixinə imzasını atmış Cəbrayıl Dövlətzadənin anası Məleykə Məmmədzadə Milli Məclisdə dövlət qulluğuna qəbul edilərək işlə təmin olunub.

(səh.2)

# Parlament amnistiya haqqında qanun layihəsini təsdiqləyib

## Qərar qəbul edilən gündən qüvvəyə minir



**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 10 məsələ olub.**

Milli Məclisin sədri Sahibə Qafarova 44 günlük Vətən müharibəsində, həm ondan əvvəlki dövrdə şəhid olmuş, erməni təcavüzü nəticəsində dünyasını dəyişmiş mülki şəxslərin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsini təklif edib və şəhidlərin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Eyni zamanda Milli Məclis 8 noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatı deputat Cavid Osmanov oxuyub. Daha sonra "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi müzakirə edilib. Deputatların müzakirəsindən sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib. Qərar qəbul edilən gündən qüvvəyə minir.

(səh.3)



## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin müavinini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul edib.**

Görüşdə Azərbaycanla-ABŞ arasında diplomatik əlaqələrin qurulmasının gələn il 30 illiyinin qeyd ediləcəyi, ölkələrimiz arasında uzun və uğurlu tərəfdaşlıq münasibətlərinin olduğu bildirildi, enerji sahəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi, Birləşmiş Ştatların Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlı olduğu vurğulandı.

Söhbət zamanı regional inkişaf və əməkdaşlıq üçün yeni imkanların olduğu qeyd edildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "PUA-larımızla Qarabağda da varıq"

### Ərdoğan: "Cənubi Qafqazda təkcə öz qayğımıza qalmırıq"



**"Türkiyə istehsal etdiyi pilotsuz uçuş aparatları, o cümlədən "Akıncı"ları ilə hər yerdə var. Biz PUA-larımızla Liviyada, Azərbaycanda, onun Qarabağ bölgəsində də varıq".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulun Umraniyyə rayonunda "Millət baxçasının"nın açılışında deyib.

Dövlət başçısı bildirib ki, Türkiyə Suriyada terrorçuluqla mübarizə aparır: "Onları da məhv edəcəyik. Aralıq dənizindən Cənubi Qafqazadək təkcə öz qayğımıza qalmırıq, dostlarımıza da yardım edirik. Qara dənizdən təbii qazı çıxarmağa başladıqdan sonra həm dövlətimiz, həm də xalqımız qazanacaq".



## Məsləhətləşmələrdən sonra müsbət addımlar atılıb

### Nazir İran-Azərbaycan münasibətlərinin müsbət məcrada inkişaf edəcəyinə əminliyini ifadə edib

**"Son aylar Azərbaycan-İran münasibətlərində bəzi ziddiyyətli məqamlarla bağlı suallar ortaya çıxır. Hər iki tərəfdən bununla bağlı fikirlər səsləndirilib. Biz məsələlərə real baxmalıyıq".**

**APA-nın xəbərinə görə, bunu jurnalistlərə açıqlamasında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.**

**Nazir bildirib ki, istənilən iki ölkə arasında, hətta digər qonşu ölkələrlə də fikir ayrılığı ola bilər: "Bu, istisna deyil. Fikir ayrılıqları olduğu təqdirdə bunu qonşuluq münasibətləri çərçivəsində müzakirə edərək həll yollarının tapılmasına tərəfdarıq. Azərbaycanın mövqeyi budur".**

**XİN rəhbəri vurğulayıb ki, son həftələr qeyd olunan məqamlarla bağlı iranlı həmkarı ilə telefon danışıqları olub: "Diplomatik kanallarla rəsmi və qeyri-rəsmi məsləhətləşmələr oldu. Hesab edirəm ki, müsbət addımlar atılıb və bundan sonra da atılacaq. Əminəm ki, İran-Azərbaycan münasibətləri hər zaman olduğu kimi müsbət məcrada inkişaf edəcək. Bizi iki yaxın qonşu ölkə olaraq birləşdirən bağlar var. Biz birlikdə xalqlarımızın, dövlətimizin rifahı üçün layihələr icra edə bilərik".**

## Siyasi partiyalara ayrılacaq vəsaitin məbləği 25 faiz artırılır

### Qanun layihəsi Milli Məclisə daxil olub və komitə iclaslarında müzakirəyə çıxarılacaq



**Gələn il Milli Məclisin deputatlarının təmsil olunduğu siyasi partiyaların maliyyələşməsinə ayrılan vəsaitin məbləği müəyyənləşib.**

Bununla bağlı məsələ "2022-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb.

Layihədə qeyd edilib ki, VI çağırış Milli Məclisin deputatlarının təmsil olunduğu siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün 5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da ötən illə müqayisədə 1 milyon manat və ya 25 faiz çoxdur. Qanun layihəsi Milli Məclisə daxil olub və komitə iclaslarında müzakirəyə çıxarılacaq.

# Pandemiya dövrü yayda başa çatacaq

### Mərdan Əliyev: "Koronavirusla bağlı ölüm sayının çox olması insanların həkimə gec müraciət etməsi ilə bağlıdı"



**"Avropa pandemiyanın mərkəzinə çevrilir və bu gedişlə daha yarım milyon insan koronadan ölə bilər".**

Bu sözləri ÜST-nin Avropa regionu üzrə rəhbəri Hans Klüge deyib. "Avropanın 53 ölkəsində yoluxma sürəti narahatlıq doğurur. Sadəcə bir həftə ərzində ağır xəstə sayı iki dəfədən çox artıb. Ötən il olduğu kimi, bu il də Avropa pandemiyanın mərkəzinə çevrilir.

(səh.3)

## İnsanları xatırlaya bilmir

### Saakaşvilinin yaddaşı pozulub



**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilidə yaddaş pozğunluğu yaranmağa başlayıb.**

TASS xəbər verir ki, bu barədə onun vəkili Nika Qvaramiya məlumat verib.

"Mixail Saakaşvili artıq özünü çox pis hiss edir. Bu artıq fiziki cəhətdən də müşahidə olunur. Onun ünsiyyət problemi yaranıb və yaddaşında ciddi pozğunluqlar var. Saakaşvili insanların adlarını xatırlaya bilmir. Hələlik mənim adımı xatırlayır, ancaq söhbət əsnasında məlum oldu ki, dostlarının bir neçəsinin adını xatırlamır", - deyə eks-prezidentin vəkili bildirib.

## Azərbaycanda 2 440 nəfər koronavirusa yoluxub

### 26 nəfər ölüb, 2 016 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 440 yeni yoluxma faktı qeydə alınıb, 2 016 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 542 150 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 503 524 nəfər müalicə olunaraq sağalıb, 7 208 nəfər vəfat edib, aktiv xəstə sayı 31 418 nəfərdir.



## Ceyhun Bayramovun çağırışı həm də xəbərdarlıqdır

### Tofiq Zülfüqarov: "Ermənistan hələ də ziddiyyətli bəyanatlar verir"

(səh.3)



## Anar əsl ziyalı mövqeyi sərgilədi

### Çingiz Abdullayevin müharibə ilə bağlı fikirləri yanlış və qüsurludur

(səh.4)

# Qazaxıstan dövlət başçısı Prezident İlham Əliyevi təbrik edib



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

*Məktubda deyilir:*

"Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə əlamətdar olan milli bayramımız münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu əlamətdar tarix Azərbaycan Respublikasının şanlı salnaməsinə ölkənizin dövlətçiliyinin və suverenliyinin möhkəmləndirilməsi naminə xalqınızın birlik, mətanət, əyilməz iradəsinin rəmzi kimi həmişəlik yazılmışdır.

İnanıram ki, Azərbaycan Sizin güclü rəhbərliyinizlə davamlı inkişaf və tərəqqi yolu ilə inamla irəliləyəcək, Qazaxıstan-Azərbaycan dostluq, qarşılıqlı dəstək və strateji tərəfdaşlıq münasibətləri isə xalqlarımızın rifahı və mənafeyi naminə bundan sonra da dərinləşəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə məsul dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, qardaş Azərbaycana firavanlıq və tərəqqi arzulayıram".



## Azərbaycan Prezidenti Türk Şurasının baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.**

Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qarşıdakı Zirvə görüşünə toxunularaq bu tədbirin üzv ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyi bildirilib və 2019-cu ildə Azərbaycanın sədrliyi ilə bu Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev ilk növbədə dövlət başçısını Zəfər günü münasibətilə təbrik edib, bu Qələbədən yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının şərəf hissi duyduğunu vurğulayıb.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib. Dövlət başçısı Vətən müharibəsi zamanı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və şəxsən Baş katib Bağdad Amreyevin Azərbaycanın haqq işinə verdiyi dəstəyi yüksək qiymətləndirib.

## Zəfər Günü...

Milli Məclis Prezident İlham Əliyev və Mehriban Əliyevanı təbrik edib

**"Noyabrın 8-də xalqımız Zəfər Gününü qeyd edəcək. İcazə verin, bu Zəfəri bizə bəxş edən Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban Əliyevanı və qazilərimizi təbrik edək".**

Bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin dünən keçirilən plenar iclasında deyib.

"Təklif edirəm ki, Zəfər Günü ilə bağlı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayaq və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaq", - o bildirib.

*Daha sonra deputatlar spikerin təklifini alqışlarla qarşılayıblar.*

## Spikerin müavini təxmini rəqəm söylədi

Məhkum qadınlardan 100 nəfər amnistiyaya düşəcək

**"Amnistiya aktı 100-dək qadına şamil olunacaq".**

Bunu Milli Məclisin dünən keçirilən iclasında parlament sədrinin birinci müavini Əli Hüseynli deyib. O bildirib ki, amnistiya aktı daha çox hüquqi sənəddir və ənənəvi olaraq bayram günləri ilə bağlı elan olunur: "Amnistiya aktına əsasən, azadlıqdan məhrum olmuş şəxslərdən azadlığa buraxılması nəzərdə tutulanların sayı təxminən 3 min nəfərdir. Ehtiyatsızlıq üzündən cinayət törətmişlər təxminən 1000 nəfərdən çox, himayəsində uşağı olanlar 600 nəfər, qadınlardan isə 100 nəfər amnistiyaya düşəcək. İndidən dəqiq rəqəmləri söyləmək çətindir. Amma təxminən rəqəmlər bu istiqamətdə olacaq".

İsmayıl

# 8 noyabr şanlı tarixdir

Dövlətlə xalqın birliyi bu qələbənin qazanılmasında xüsusi rol oynadı

**Dünən Milli Məclisdə deputatlar 8 noyabr - Zəfər Günü ilə əlaqədar parlamentin qəbul edəcəyi Bəyanatla bağlı müzakirə aparıblar. Millət vəkili Musa Quliyev bildirib ki, 100 il öncə Azərbaycanın bir hissəsi - Zəngəzur qoparılaraq, Ermənistana verilib, bununla da bütün türk dünyası arasında əlaqə kəsilib.**

Deputat qeyd edib ki, ancaq 44 günlük savaşda qazandığımız qələbə bu tarixi ədalətsizliyin aradan qaldırılmasına gətirib çıxardı: "Zəngəzur dəhlizinin açılması bölgəyə əbədi sülh, tərəqqi gətirəcək. Bu qələbədə şəhidlərimizin qanı yerdə qalmadı. Bütövlükdə Azərbaycan xalqının qüruru özünə qayıtmış oldu. Postmüharibə dövründə şəhid ailələri, qazilərlə bağlı bir sıra yeni qanunlar qəbul edildi. Bu işdə Milli Məclis də fəal iştirak etdi. Postmüharibə dövründə Prezident İlham Əliyevin rəhbərliyi altında Mehriban xanımın dəstəyi ilə çox nəhəng işlər görülüb və görülməkdədir. Gələn il də quruculuq prosesi davam edəcək".




"Azərbaycan təkcə ərazi bütövlüyünü, suverenliyini təmin etmədi, eyni zamanda erməni faşizminə ölümcül zərbə endirdi"

**Deputat Bəxtiyar Əliyev isə qeyd edib ki, 8 noyabr ədalətin zəfəri, eyni zamanda faşizmin məhvi idi:** "Bu gün artıq Prezidentin də bəyan etdiyi kimi, münaqişə keçmişdə qalıb. Erməni vandallarının dağıtdığı, yerlə-yeksan etdiyi şəhərlərimiz yenidən qurulur. Keçmiş məcburi köçkünlərimiz öz Prezidentinə inanır, onun siyasətinə sadiqdir".

**Deputat Elman Nəsirov diqqətə çatdırıb ki, 8 noyabr qürur mənbəyinə çevrilmiş şanlı tarixdir:** "Tarixi zəfər nəticəsində təkcə ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunmadı, eyni zamanda erməni faşizminə ölümcül zərbə endirdi. Artıq 1 ildir ki, müzəffər Azərbaycan Ordusu xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirib. Zəif büdcəyə malik Ermənistan iri həcmdə silah-sursat almaq imkanına malik deyildi. Deməli, təcavüzkarın şirnikləşdirilməsi siyasəti onda "arxayınçılıq sindromu" formalaşdırıb, cəzasız qalacağına inam yaratmışdı".

**Parlament üzvü Qənirə Paşayeva bildirib ki, qazilərimizin və şəhidlərimizin fədakarlığını xalqımız heç zaman unutmayacaq:** "Dünyanın hər yerində yaşayan azərbaycanlılar Ali Baş Komandanın ətrafında birləşərək, hər biri özünü könüllü əsgər hiss etdi. Dövlətlə xalqın birliyi, bərabərliyi bu zəfərin qazanılmasında xüsusi rol oynadı. Milli Məclis də, hər birimiz Ali Baş Komandanın əsgəri kimi müharibə dövründə çalışdıq. Bu gün bu qələbəni qəbul etməyən xarici və daxili güclər var, onlar Azərbaycanın öz gücü hesabına torpaqlarını işğaldan azad etməsini həzm edə bilmir. Dövlətimizin daha da gücləndirilməsi üçün hamımız birliyimizi bundan sonra daha gücləndirməliyik. Xalqımız arasında zərərli düşüncə toxumları əkilməsinə imkan verməməliyik".

**Milli Məclisin üzvü Qüdrət Həsənquliyev də vurğulayıb ki, qələbənin əldə edilməsində hər kəs çalışıb. Qeyd edib ki, Prezident İlham Əliyev sərkərdə, dövlət adamı kimi müharibəyə başlamaq üçün doğru zamanı gözləyib:** "Dövlət başçısı İlham Əliyev diplomatik cəbhədə işlər görməklə yanaşı, güclü ordu qurürdu. 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevə xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan böyük basqı var idi. Bəzi jurnalistlərin hətta qərəzli suallarına Prezidentin necə uğurla cavab verdiyini gördük. Xalqımız möhtəşəm qələbəyə imza atdı. Bu qələbədə Ali Baş Komandanın xüsusi rolu var. Amma bütün xalqımız bunun üçün çalışdı. Xalqımız artıq başını dik tutub, dünya xalqları arasına çıxa bilər".

İsmayıl

# Şəhid Cəbrayıl Dövlətzadənin anası parlamentdə işlə təmin olunub

**Məlum olduğu kimi, ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə iştirakçıları daim diqqətdə saxlanılır, dövlətin qayğısı ilə əhatə olunurlar.**



Milli Məclis tərəfindən də şəhid ailələri və qazilərlə müntəzəm görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür, şəhidlərin ailə üzvlərinin və qazilərin Milli Məclisdə işlə təmin olunmasına xüsusi önəm verilir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Şərq"ə verilən məlumata görə, Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Milli Məclisin sədri Sahibə Qafarovanın müvafiq əmrinə əsasən, general-mayor Polad Həşimovun qisasını alan əsgər kimi Vətən müharibəsi tarixinə imzasını atmış Cəbrayıl Dövlətzadənin anası Mələykə Məmmədzadə Milli Məclisdə dövlət qulluğuna qəbul edilərək işlə təmin olunub.

Bundan əlavə Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş, Vətən müharibəsi zamanı Suqovuşan və Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edən qazi Abbas Yusifov S.Qafarovanın imzaladığı əmrlə Milli Məclisdə dövlət qulluğuna qəbul edilərək işlə təmin olunub.

# "Ermənistan Azərbaycan ərazilərinə iddialardan əl çəkməlidir"

Prezidentin köməkçisi sülh müqaviləsinin imzalanması üçün beynəlxalq ictimaiyyəti səyləri səfərbər etməyə çağırıb

**"Diplomatik xidmətdə olduğum müddətdə başqa ölkələrin zəfər günləri ilə bağlı tədbirlərə dəvət alırdım. Həmişə düşünürdüm ki, bizim tariximizdə də belə Zəfər olacaq?"**



Bunu dünən ADA Universitetində təşkil olunan "44 Günlük Zəfər Yolu" konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

H. Hacıyev bildirib ki, artıq Azərbaycan tarixində də belə bir Zəfər Günü var: "Xaricdə tədbirlərdə məğlub olmuş ölkənin nümayəndəsi kimi çıxış etmək də çox çətindir. İndi xaricdəki diplomatik nümayəndəliklərimizdə Zəfər Günü ilə bağlı tədbirlər təşkil olunur. Ali Baş Komandana təşəkkür edirik!"

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, Ermənistanla Azərbaycan arasında münasibətlərdə problem mövcuddur və bu münasibət dəyişməlidir.

"Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanmalı, ölkələr bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımalıdır", - H. Hacıyev vurğulayıb.

Prezidentin köməkçisinin sözlərinə görə, Ermənistanın Azərbaycana qarşı qaldırdığı iddialar onu göstərir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır: "Buna son qoyulmalıdır. Ermənistan Azərbaycan ərazilərinə iddialardan əl çəkməlidir".

H. Hacıyev onu da vurğulayıb ki, Ermənistanın Cənubi Qafqazda daha bir dövlət yaratmaq niyyəti iflasa uğrayıb.

**"Səfir həmkarlarımızla işğaldan azad edilmiş ərazilərə səfər edəndə onlar dağıntıları öz gözləri ilə görüblər".**

Bunu da Prezidentin köməkçisi Hikmət Hacıyev söyləyib.

H. Hacıyev deyib ki, Azərbaycan bu əməllərə quruculuqla cavab verir: "Məsələn, Azərbaycan tamamilə dağıdılmış 9 şəhəri yenidən qurmalıdır. Azərbaycanın Ermənistana təklifləri isə göz qadağındadır. Ermənistan cəmiyyəti də siyasi, psixoloji olaraq dəyişməli, qonşularla sülh şəraitində yaşamağı qəbul etməlidir. Əgər İkinci Dünya müharibəsindən sonra Fransa və Almaniya arasında belə sülh müqaviləsi imzalanıbsa, Azərbaycanla Ermənistan arasında niyə imzalanmamalıdır? Biz beynəlxalq ictimaiyyəti bu istiqamətdə səylərini səfərbər etməyə çağırırıq".

**"Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında hər hansı görüşün keçiriləcəyi ilə bağlı məlumat yoxdur". Bu no jurnalistlərə açıqlamasında Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir müharibədən sonra Moskvada Azərbaycan və Ermənistan liderlərinin görüşdüyünü xatırladıb. XİN rəhbəri gələcəkdə hər iki ölkə liderinin görüşünün mümkünlüyünü də istisna etməyib.**

*Mövzu ilə bağlı siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında deyib ki, 9 noyabr tarixi Paşinyan hakimiyyətinə də sərf edən məqamdır. Çünki ötən il 9-10 noyabr tarixində Ermənistan kapitulyasiya aktına imza atdı və bu, hakimiyyətə qarşı təbliğatın əsas istiqamətini təşkil edir:* "Paşinyan həm də Ermənistan SSR-yə verilən əraziləri özündə saxlamaqla bunu "qələbəyə" çevirmək istəyir və bu "qələbənin" məhz 9 noyabr tarixində olması Paşinyana sərf edir. Fikrimcə, bu tarixin ortaya atılması daha çox təbliğata hesablanmış addım idi. Lakin həmin tarixdə görüşün keçiriləcəyi ehtimalı çox azdır. Görüşün olacağı məlumdur, hər iki tərəf, o cümlədən, Rusiya bunu təsdiqləyir, prosesin uzanmasının bir neçə səbəbi var. Birincisi, sərhədin hansı kapitulyasiya aktının ildönümündə sərhədlərin müəyyənləşməsi ilə bağlı sənədi imzalamaqla ötənilki məğlubiyyətini ən azı arxa plana keçirə bilər. Bu baxımdan, sərhədin delimitasiyasının Ermənistanın əleyhinə olmadığı rəyi yaradılır. Burada xəritələr önəmlidir. Ermənistan tərəfi 1920-ci illərin xəritəsinə əsasən sərhəd müqaviləsi imzalamaqda maraqlıdır, konkret, 1926-29-cu illərin xəritələri. Həmin xəritələrdə Azərbaycanın Zəngəzurla sərhəddə yerləşən ərazilərinin otlaq və əkin üçün Ermənistan SSR-yə verilməsi təsdiqlənib. O cümlədən, həmin vaxt "Dağlıq Qarabağ Muxtar Respublikası" mövcud idi. Ermənistan həm Qarabağın "statusunu" gündəmdə saxlamaq,



# Noyabrda liderlərin görüşü gözlənilmir

Proses nə qədər uzansa da, Ermənistanın sülh sazişinə gəlməkdən başqa çıxış yolu yoxdur

"İrəvan prosesi uzatmağa çalışır, amma prosesin uzanması Rusiyanın regional maraqlarına uyğun deyil"

xəritələr üzərində müəyyənləşməsi ilə bağlı razılıq əldə olunmayıb. İkincisi, Azərbaycan yekun sülh sazişinin imzalanmasını, yeni qarşılıqlı olaraq, ərazi bütövlüyünün tanınmasını istəyir. Ermənistan isə sərhədin müəyyənləşməsi və kommunikasiyanın açılmasına razıdır, amma Qarabağla bağlı iddialarından əl çəkmək istəmir. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bildirdi ki, baş nazir müavinlərinin üçtərəfli görüşü noyabrın 29-da keçiriləcək. Bu o deməkdir ki, liderlərin noyabr ayında görüşəcəyi xəbəri doğru deyil, çünki xəritələr və kommunikasiyaların açılması məsələsinin detalları baş nazir müavinlərinin şərtləri İşçi Qrupu tərəfindən dəqiqləşməli, ondan sonra masaya qoyulmalıdır".

**Analitik əlavə edib ki, proses nə qədər uzansa da, Ermənistanın sülh sazişinə gəlməkdən başqa çıxış yolu yoxdur:** "İrəvan prosesi uzatmağa çalışır, amma prosesin uzanması Rusiyanın regional maraqlarına uyğun deyil. Bu baxımdan, qarşıdakı aylarda masaya gəlməyə məcbur olacaq və Azərbaycanın şərtləri çərçivəsində müqavilə imzalamalı olacaq. Prezident İlham Əliyevin sonuncu çıxışında "Ermənistan Azərbaycanın konstruktiv mövqeyinə müqavimət göstərə bilməyəcək" sözləri də bunu deməyə əsas verir".

Aynurə Pənahqızı



# Parlament amnistiya haqqında qanun layihəsini təsdiqləyib

## Qərar qəbul edilən gündən qüvvəyə minir

İsmayıl Qocayev

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 10 məsələ olub. Milli Məclisin sədri Sahibə Qafarova 44 günlük Vətən müharibəsində, həm ondan əvvəlki dövrdə şəhid olmuş, erməni təcavüzü nəticəsində dünyasını dəyişmiş mülki şəxslərin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsini təklif edib və şəhidlərin ruhu 1 dəqiqəlik sükutla yad edilib.**

Eyni zamanda Milli Məclis 8 noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatı deputat Cavid Osmanov oxuyub. Daha sonra "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi müzakirə edilib. Deputatların müzakirəsindən sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib. Qərar qəbul edilən gündən qüvvəyə minir.

**"Azərbaycan bayrağı Qarabağda və Şərqi Zəngəzurda inamla dalğalanır"**

**Parlament sədri Sahibə Qafarova deyib ki, bir il əvvəl Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən müstəsna zəfər tarixə qızıl hərflərlə yazılıb. Sədr bildirib ki, 44 günlük müharibə nəticəsində Ermənistan ağır zərbələr alıb:** "Tarixi ədalət bərpa edilib. Azərbaycan BMT-nin və digər beynəlxalq təşkilatların qətnamələrini öz gücü ilə təmin edib. Təkcə Azərbaycanın deyil, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı üçün yeni imkanlar açan bu zəfər çox mütərəqqi hadisədir".

Spiker qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Ordusunun nəyə qadir olduğunu bu gün hər kəs görür: "Bu gün Azərbaycan Ordusunun döyüş taktikası bir sıra dünya ölkələrində öyrənilir. Artıq Ordumuz ən yaxşı ordular sırasındadır. Zəfərimizə səbəb olan bir amil də milli birliyimizdir. Bu birliyə düşmən duruş gətirə bilməzdi və gətirə bilmədi. Prezident İlham Əliyevin dediyi kimi, düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı. Bu gün Azərbaycan bayrağı Qarabağda və Şərqi Zəngəzurda inamla dalğalanır. Qarabağda geniş quruculuq işləri həyata keçirilir. Bölgənin bərpası planlarının həyata keçirilməsinə dost və qardaş ölkələr də cəlb edilir. Müdrik rəhbərimizə, qəhrəman xalqımıza, ordumuza eşq olsun. Bizim onların hər birinə minnət borcumuz var".

**"Şəhid ailələri və qazilərin qohumları ilə bağlı müraciətə baxıla bilər"**

**Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli bildirib ki, bütün şəhid ailələri və qazilərin müraciətlərinə həssaslıqla yanaşılır.** Deputat deyib ki, onlar ağır və xüsusilə ağır cinayət törətmiş qohumları ilə bağlı Əfv Komissiyasının parlamentdən olan deputatlarına müraciət edə bilərlər: "1992-ci ildə olan amnistiya aktına ağır, xüsusilə ağır cinayət törətmiş şəxslər də daxil edilmişdi. Şəhid və qazi ailələrinin belə cinayət törətmiş yaxın qohumları ilə bağlı müraciətlərinə əfv məsələsi zamanı baxıla bilər".

**"Bu Amnistiya Aktı Prezidentin xalqa hədiyyəsidir"**

**Deputat Kamal Cəfərov deyib ki, tariximizin ən böyük amnistiya aktı cəmiyyətdə, respublikada böyük sevincə, şadyanalığa səbəb olub.** Gün-ki qarşıdan gələn 8 noyabr - Zəfər Gününü minlərlə insan evində, ailəsi ilə birgə qeyd edə biləcək: "Layihə həm Birinci Qarabağ müharibəsi, həm İkinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Tovuz hadisələri, ümumilikdə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edən şəxslərə, medal və ordenlə təltif olunanlara, müharibədə şəhid olmuş şəxslərin yaxın qohumlarına şamil edilir. Amnistiya yalnız həbsdən azad etməni deyil, həm də cəzanın müddətinin azaldılmasını ehtiva edir. Belə ki, 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olmuş şəxslərin cəzası 6 ay azaldılacaq. Bu maddənin 3 mindən çox şəxsi əhatə edəcəyi proqnozlaşdırılır. Böyük ictimai təhlükə törətməyən şəxslər üçün 1 il, az ağır cinayət törətmiş şəxslərin isə həbsdən çıxdıqdan sonra üzərlərində 2 il məhkumluğu olur. Bu amnistiya ilə azadlığa çıxan şəxslərin üzərindən məhkumluq da götürüləcək".

**"Əhalinin rifahı yüksəlmədikcə, ədalətə inam da bərpa olunmayacaq"**

**Millət vəkili Fazil Mustafa bildirib ki, biz torpaqları işğaldan azad etdik, böyük zəfər qazandıq:** "İndi savaşdan sonrakı dövrün əvvəlkindən fərqini göstərə bilməsək insanlarımızı xoşbəxt görə bilməyəcəyik. Deməli, torpağı işğaldan azad etdiyimiz qətiyyətlə də ölkədə ədaləti işğaldan azad etməliyik. Ədalət deyəndə yalnız məhkəmə ədalətindən söhbət getmir. Həyatımızın bütün sahələrində ədalətsizliyin ortadan qaldırılmasından söhbət gedir. Əhalinin rifahı yüksəlmədikcə, korrupsiyaya, inhisarçılığa, imtiyazçılığa son qoyulmadıqca, ədalətə inam da bərpa olunmayacaq".

**"Biz həm də pandemiyanın təsirinə ən az məruz qalmış xalqıq"**

**Deputat Mələhət İbrahimqızı qeyd edib ki, bu gün təkcə möhtəşəm zəfərimizin 1 illiyini qeyd etmirik, həm də postmüharibə dövrünün 1 illik hesabatını veririk:** "Hər kəs Prezident İlham Əliyevin nə qədər əzəmətli lider olduğunun şahididir. Bu gün nə qədər ölkə, nə qədər beynəlxalq təşkilat postmüharibə dövrü üçün plan və strategiya hazırlayıb ortaya qoya bilmir. Biz həm də pandemiyanın təsirinə ən az məruz qalmış xalqıq. Ölkəmizdə bir tərəfdən də müharibədən sonrakı qazi və şəhid ailələri ilə bağlı nəhəng işlər görülür. Digər tərəfdən ölkəmizin bölgələrində inkişaf dinamikası davam edir".

# Ceyhun Bayramovun çağırışı həm də xəbərdarlıqdır

## Tofiq Zülfüqarov: "Ermənistan hələ də ziddiyyətli bəyanatlar verir"



**Xarici işlər naziri Ceyhun Bayramov ADA Universitetində "44 Günlük Zəfər Yolu" mövzusunda keçirilən konfransda çıxış edib. Nazir qeyd edib:**

"Ermənistan rəhbərliyindən çağırışlarımıza cavab gözləyirik. Çağırışımız sadədir - qonşu ölkənin suverenliyinə və sərhədlərinə hörmətlə yanaşmaq, inkişaf edən bölgənin inkişaf edən hissəsinə çevrilmək lazımdır".

Nazirin sözlərinə görə, Azərbaycan yalnız niyyətini ortaya qoyub çağırış edə bilər: "Bu çağırışlara cavabı Ermənistan rəhbərliyi verəcək. İstəyimiz sülh və əmin-amanlıq mühitinin davamlı olmasıdır. Əminəm ki, ölkəmizin inkişafı bundan sonra da davam edəcək".

*Çağırışlarımıza məhəl qoymamaq rəsmi İrəvan üçün nə ilə nəticələnə bilər?*

**Mövzu ilə bağlı "Şərq"ə danışan Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov belə çağırışların bizim humanistliyimizdən qaynaqlandığını bildirib:** "Məsələ heç kimin həyatına son qoymadan Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tam şəkildə bərpa etməkdir. Cənab nazir də bunu nəzərdə tutur ki, Ermənistan yalnız siyasi yox, praktiki baxımdan da rəsmi olaraq iddialardan əl çəksin. Bu, birmənalı şəkildə baş verməlidir. Təbii, Azərbaycan bundan öncə olduğu kimi imkan verir ki, rəsmi İrəvan siyasi, ya da diplomatik üsullarla bunu öhdəlik kimi götürsün və əməl etsin. Təəssüflər olsun ki, Ermənistan hələ də ziddiyyətli bəyanatlar verir".

**Sabiq nazir bu çağırışların bir növ xəbərdarlıq olduğunu da diqqətə çatdırıb:** "Əgər rəsmi İrəvan tərəfindən belə addımlar atılsa, Azərbaycan daha ciddi tədbirlər görəcək. Buna heç kəsin şübhəsi olmasın. İkinci Qarabağ savaşı nəticəsində hər kəs Azərbaycanın siyasi iradəsi və mübarizə əzmi ilə tanış oldu. Sadəcə olaraq biz istəyirik ki, qan tökülmədən bütün məsələlər öz həllini tapsın".

Günəş Mərd

# Pandemiya dövrü yayda başa çatacaq

## Mərdan Əliyev: "Koronavirusla bağlı ölüm sayının çox olması insanların həkimə gec müraciət etməsi ilə bağlıdı"



**"Avropa pandemiyanın mərkəzinə çevrilir və bu gedişlə daha yarım milyon insan koronadan ölə bilər".**

Bu sözləri ÜST-nin Avropa regionu üzrə rəhbəri Hans Klüge deyib. "Avropanın 53 ölkəsində yoluxma sürəti narahatlıq doğurur. Sadəcə bir həftə ərzində ağır xəstə sayı iki dəfədən çox artıb. Ötən il olduğu kimi, bu il də Avropa pandemiyanın mərkəzinə çevrilir. Aradakı fərq yalnız daha çox biliməyimiz və daha çoxunu edəcəyimizlə bağlıdır", - deyə Klüge bildirib.

Həkim infeksionist-hepatoloq Mərdan Əliyev "Şərq"ə açıqlamasında Azərbaycanda pandemiya ilə bağlı vəziyyətin stabil olduğunu deyib. Onun sözlərinə görə, hazırda yeni yoluxanların sayı zəif tempdə artmaqda davam edir: "Sağalanların sayı yoluxanların sayına təqribən bərabərdir. Aktiv xəstə sayı isə çox artmır. Buna görə vəziyyət stabil olaraq qalır. Ancaq ölüm sayı bir qədər çoxdur, bunun da səbəbi insanların həkimə bir az gec müraciət etməsidir. Çünki xəstələr adi qrip olduqlarını zənn edirlər və vəziyyət artıq ağırlaşanda həkimə müraciət edirlər. Çox zaman da belə vəziyyətdə xəstəni xilas etmək mümkün olmur".

M.Əliyev koronavirusun fəsli infeksiyaya çevriləcəyini deyib: "Üzü yaya doğru vəziyyətin bu cür davam edəcəyini gözləyirik, yəni çox sürətli artım müşahidə edilməyəcək. Ondan sonra isə azalmağa doğru gedəcək. Bundan sonra da yəqin ki, pandemiya dövrü başa çatacaq və bu xəstəlik fəsli infeksiyaya çevriləcək. Bu gün koronavirusla bağlı ölüm sayları bir qədər artıqdır. Bu da əvvəlcə dediyimiz məsələlərlə bağlıdır. Ümumi dünya üzrə götürəndə təqribən hesablasaq bəlkə də, elə 1 milyon ölüm sayı ola bilər. Çünki bu tendensiya bütün dünyada davam edir və ölüm sayı bütün dünyada artmaqdadır. Yəni faiz nisbətini götürəndə yoluxanla ölüm sayı arasında faiz nisbəti bir qədər çoxdur".

Aynurə

# "Biz həyəcan təbili çalmalıyıq"

## Bakıda dünyanın tanınmış siyasiləri ölkələri iqlim dəyişikliyi ilə mübarizəyə səslədi

**Dünən VIII Qlobal Bakı Forumu çərçivəsində "Qlobal iqlim dəyişiklikləri ilə mübarizə və enerjiyə qlobal ehtiyacların qarşılanması. Hər iki məsələni eyni vaxtda necə həll etmək olar?" adlı panel keçirilib. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta panelə moderatorluq edib. Azərbaycanın Energetika naziri Pərviz Şahbazov deyib ki, iqlim dəyişikliyi və enerji resurslarından istifadə məsələsi bütün ölkələri birləşdirir. Nazirin sözlərinə görə, qlobal istiləşmə, iqlim dəyişikliyi artıq bu gün reallığa çevrilib:**

"Qlazqodakı qərarlar və nəticələr bizim bacarıqlarımızı, vədlərimizi və onların reallaşmasını müəyyən edəcək". P.Şahbazov qeyd edib ki, enerji resursları və iqlim dəyişikliyi məsələsində üç əsas komponent diqqətdə olmalıdır: - "ağıllı" enerjiyə keçid, iqtisadi inkişaf və iqlim dəyişikliyi ilə mübarizə. Biz qərarlar qəbul edəndə, bunları nəzərə alırıq. Ancaq əsas məsələ bu üç komponent arasında balansı tapmaqdır. Belə ki, doğru balans qərarlara da təsir edir. Yalnız bu komponentlərdən birini seçsək, bu, uğurlu fəaliyyətə gətirib çıxarmayacaq. Bərpa olunan enerji mənbələrindən istifadə önəmlidir. Enerji istehsalında bu mənbələrin rolu 36 faizə çatıb. Lakin bu, kifayət deyil, davamlılığı artırmaq lazımdır. Enerji səmərəliliyi istiqamətində səylərimizi gücləndirməliyik. Azərbaycan çalışır ki, bütün aspektlər uyğunlaşsın. Qaz və neft istehsalçısı ölkəsiyik, lakin qətiyyətli və qərarlı şəkildə bərpa olunan enerji resursları istiqamətində işləyirik".

BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti, Ekvadorun keçmiş xarici işlər və müdafiə naziri Mariya Fernanda Espinoza çıxışında bildirib ki, iqlim tarazlığı barədə düşünülməlidir: "Artıq məsələ başəriyyətin bu planetdə mövcudluğu səviyyəsinə gəlib çatıb. Biz həyəcan təbili çalmalıyıq. Kömür istehsalının və hasilatının qarşısını almalıyıq. Sosial iqtisadi islahatlar aparmalıyıq, bu, xüsusilə inkişaf etməkdə olan ölkələrdə nəzərə alınmalıdır. Təbii ki, bu ölkələr inkişafdadır, onlar üçün bu resurslardan istifadə vacibdir və bunlardan imtina çətindir, ancaq bu, tədrici olmalıdır, belə ölkələrə dəstək verilməlidir".




Mariya Fernanda Espinoza dünya ölkələrinin Paris İqlim Sazişinin reallaşmasından çox geridə olduğunu vurğulayıb: "Dünya sistematik problemlə üzləşir. Bizə dayanıqlı, çoxtərəfli yanaşma lazımdır, bu, bir ölkənin məsuliyyəti deyil, məsuliyyəti bölüşməliyik".

**"İnkişaf etməkdə olan ölkələrə yardım edilməlidir"**

**Nobel Sülh Mükafatı laureatı Uided Buşamai çıxışında su resurslarının iqlim dəyişikliyinin təsirlərinə məruz qaldığını və ölkələr üçün yaratdığı problemlərdən danışıb:** "Su ehtiyatlarının qorunması və iqlim dəyişikliyinin nəticələrinə adaptasiya olmaq üçün inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə yardım etməlidir".

İSESCO-nun keçmiş baş direktoru Əbdüləziz əl-Tuveycri çıxışında deyib ki, onun ölkəsinin qaz və neft resursları olsa da günəş və külək enerjisindən istifadə edir və ölkə bunu genişləndirir: "Biz hazırkı enerji istehsalı metodlarını məhdudlaşdırmalıyıq, alternativ enerji resurslarına yönəlməliyik. Biz bunu təbliğ etməliyik. Qalıq yanacaqları məhdudlaşdırmalıyıq, bu bizim ətraf mühitimizə zərər vurur. Bərpa olunan enerji istehsalının bahalı olduğu deyilir, doğrudur, amma texnologiya inkişaf etdikcə, bu, daha da ucuzlaşacaq və səmərəli olacaq".

**İspaniyanın keçmiş xarici işlər naziri Ana Palasio isə çıxışında deyib ki, bütün vasitələrlə dekarbonizasiya reallaşmalıdır:** "İstixana qazlarının, emissiyaların məhdudlaşdırılması qlobal səviyyəli məsuliyyətdir. Bu, çoxtərəfli problemdir ki, biz üzləşirik. Birgə səylər göstərməliyik ki, hədəflərimiz reallaşsın".

Rumıniyanın keçmiş xarici işlər naziri Lazar Komanesku da paneldə çıxış edib. O deyib ki, bu mövzu zamanın çağırışı, problemidir: "Əməkdaşlığın vacibliyi ilə bağlı vurğu artmalıdır, Paris İqlim Sazişinin hədəflərinə nail olmaq üçün bu vacibdir. Regional, ikitərəfli və qlobal səviyyədə əməkdaşlıq dərinləşməlidir".

**"Ermənistan sivilizasiyaya məxsus mədəni irsi məhv edib"**

**İSESCO-nun sabiq baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz Osman əl-Tüveycri deyib ki, işğal vaxtı Qarabağda törədilənlər həm Ermənistan, həm də dünya üçün bir utancdır:** "Çünki dünya baş verənlərə, törədilənlərə səssiz qaldı. BMT Təhlükəsizlik Şurasının (TŞ) Ermənistanın Qarabağdan qeyd-şərtsiz çəkilməsi ilə bağlı qətnamələri icra olunmadı". O qeyd edib ki, dünya Ermənistanın Azərbaycana məxsus torpaqlarda mədəni irsi, dini və tarixi abidələri, hökumət binalarını, kəndləri və şəhərləri dağıtmasına sadəcə şahidlik edib: "Yüz minlərlə insan öz evindən, doğma torpağından didərgin salındı. Dünyanın bunu izləməsi utancvericidir. Nəhayət, bu torpaqlar Allahın köməyi, cəsarətli Azərbaycan Ordusunun gücü və Azərbaycan Prezidentinin və xalqının qətiyyəti ilə işğaldan azad olundu. İndi isə dünya ictimaiyyəti hərəkətə keçməlidir. İSESCO, UNESCO kimi beynəlxalq institutlar və təşkilatlar Azərbaycanın Qarabağdakı quruculuğuna dəstək verməlidir. Çünki azad olunmuş ərazilərdəki mədəni irs, tarixi abidələr yalnız Azərbaycana yox, bəşəriyyətə məxsusdur. Ermənistan sivilizasiyaya məxsus mədəni irsi məhv edib. Bu abidələr UNESCO tərəfindən siyahıya alınmalıdır. Mən İSESCO-nun baş direktoru olarkən də bu məsələni təşviq etmişəm, Ermənistanın törətdiyi vəhşiliklərə son qoyması barədə çağırış etmişəm".

**"Azərbaycan effektiv şəkildə pandemiya ilə mübarizənin öhdəsindən gəlir"**

**Səhiyyə nazirinin birinci müavini, səhiyyə naziri vəzifəsini icra edən Teymur Musayev bildirib ki, pandemiya səhiyyə sistemlərini təzyiq altında qoyub və ölkələr, hökumətlər üçün ciddi çətinliklər yaradıb.** O deyib ki, yüksək gəlirli ölkələrdə peyvənd paylanması ilə bağlı rəqəmlər yüksəkdir, aşağı gəlirli ölkələrdə isə hər yüz nəfərə 4 doza düşür: "Bu fərq təəssüfləndiricidir". T.Musayev tədbir iştirakçıları ilə Azərbaycanın pandemiyaya qarşı mübarizədə təcrübəsini bölüşüb: "Biz effektiv şəkildə bunun öhdəsindən gəlirik. Kifayət qədər peyvənd aldıq və ötən ilin 18 yanvarından etibarən Azərbaycanda peyvəndləmə başladı. Hədəf auditoriyasının 60 faizdən çoxu peyvənd olunub və artıq vətəndaşlarımıza buster peyvənd vurulur. Biz ilk gündən güclü ictimai kampaniya başlatdıq, burada media, vətəndaş cəmiyyətinin dəstəyi qeyd olunmalıdır. Peyvənd vurulan, virusa yoluxan şəxslərin sayı ilə bağlı rəqəmlər şəffaf şəkildə paylaşılı və paylaşılır. Pandemiya ilə mübarizə bizdən qlobal cavab tələb edir. Qlobal pandemiya siyasəti ÜST-nin siyasəti ilə uzlaşmalıdır". Nazir əvəzi vurğulayıb ki, beynəlxalq təşəbbüslər bu mübarizədə vacibdir: "Azərbaycan bu təşəbbüslərdən effektivi olan COVAX mexanizmınə qoşulan ilk ölkələrdəndir. Amma təəssüflə qeyd etməliyik ki, bu təşəbbüs sərt, azad bazar qaydaları ilə üzləşdi. Hökumətlər bu təşəbbüsü, mexanizmi dəstəkləməlidir ki, bütün dünya ölkələrinə peyvənd çatdırıla bilsin. Azərbaycan vaksin milliləşməsinə və peyvəndlərin yığılmasına (stockpile) qarşı mübarizə aparıb, ölkələrə çağırış edib. Biz bu pandemiyadan dərslər götürdük. Biz informasiya paylanması və əlaqələnmə proqramlarının vacibliyini, dəqiq informasiyanın qərarlar almaq və effektiv siyasət üçün nə qədər önəmli olduğunu bir daha başa düşdük".

İsmayıl Qocayev

# Anar əsl ziyalı mövqeyi sərgilədi

## Çingiz Abdullayevin müharibə ilə bağlı fikirləri yanlış və qüsurludur



**Rey Kərimoğlu:**

"1991-94-cü illərdə ordu da olub, müharibə də. Təxribatlar olmasaydı, Azərbaycanın ovaxtkı ordusu bir qarış torpağın da işğal olunmasına imkan verməzdi"





**Müzakirələr səngimir. Xalq yazıçısı Çingiz Abdullayevin "Birinci Qarabağ müharibəsi olmayıb" fikri ictimaiyyətdə, xüsusilə də Qarabağ müharibəsinin yaralarını canında, qanında gəzdirən insanlarımızda haqlı əsəb, qıcıq, narazılıq doğurub.**

Sosial şəbəkələrdə isə gözlənildiyi kimi, tənqidlər, təhqirlər, bununla yanaşı xalq yazıçısının fikrinin doğru anlaşılmadığını izah etməyə, necə deyərlər, Çingiz Abdullayevi boğazına keçirilən "kəndirdən" xilas etməyə çalışanlar artıq bir-biriylə savaşa çıxıb. Müzakirə etmək, fikir bildirmək hər kəsin haqqıdır. Lakin təhqir olmasın. Amma gəl bunu şəhid anasına, şəhid bacısına, bədəninin müəyyən hissələrini itirmiş qazilərə anlat! Mümkün deyil. Çünki ortada səhv bir fikir, səhv yanaşma var. Əvvəlcə bu yanlışlıq düzəlməlidir. İlk növbədə buna xalq yazıçısının özü cəhd etdi. Tənqidlərə məruz qalandan sonra xalq yazıçısı növbəti açıqlama verməyə məcbur oldu. Yayılan videoda bildirdi ki, fikri düzgün anlaşılmayıb; müharibə - iki ordu arasında baş verir. Ermənilər isə 1990-cı illərdə ordusu olmayan Azərbaycana qarşı rus hərbi birliklərinin gücündən istifadə etməklə müharibə aparıb və torpaqlarımızı işğal edib.

Ç.Abdullayev bu fikri səsləndirməsinin səbəbini də açıqladı və dedi ki, Rusiya kanallarındakı debatlarında erməni ekspert erməni xalqının "əsgər xalq", azərbaycanlıların isə "alverçi xalq" olduğunu və ona görə də qalib gəldiklərini bildirmişdi. Sözügedən verilişdə erməni ekspertin o ifadəni həyasızcasına işlətdiyini əks etdirən video sosial şəbəkələrdə vaxtilə yayılıb. Xüsusilə 44 günlük müharibə zamanı erməni ekspertin o sözləri "məxsusi komentlərlə" yayılırdı və minlərlə fərarisi olan, qaçıb Fransaya sığınan ermənilərə "döyüşkən xalq" olduqları barədə qondardıqları yalana görə yaxşıca "bəy tərifi" deyilirdi. Axar.az qeyd edir ki, Ç.Abdullayevin bu baxımdan təkzib videosu yayması və fikirlərini izah etməyə çalışması normaldır. Əslində, birinci fikrinin əhatə olunduğu videoda da Ç.Abdullayevin nə demək istədiyi, Birinci Qarabağ savaşını niyə "müharibə" kimi qəbul etmək istəmədiyi aydın idi və doğrusu, ciddi qınağa çevrilməsinə də ehtiyac yox idi. Sadəcə, Ç.Abdullayev ənənəvi olaraq Azərbaycan dilində özünü ifadə etməkdə çətinlik çəkdiyindən, yanlış nəticələr ortaya çıxır.

Müzakirələr səngimədiyindən bu dəfə ədəbiyyatımızın daha ağır artilleriyası *(Ona qədər başqa yazıçılar da Ç.Abdullayevə bəraət qazandırmağa çalışmışdı M.R. )* - xalq yazıçısı, AYB sədri Anar ictimaiyyətə müraciət edib. Müraciətin mətni belədir:

"Yazıçı həmkarım, Yazıçılar Birliyinin birinci katibi Çingiz Abdullayevə ağır ittihamlardan ibarət olan yazıyla bağlı mən də bəzi fikirlərimi söyləmək istədim. Danılmaz tarixi faktdır ki, birinci Qarabağ müharibəsi olub və bu müharibənin nəticələri bizim üçün ağırdır. Torpaqlarımızın iyirmi faizi işğal olunmuşdu. Bunun səbəbləri barədə müxtəlif rəylər ola bilər və mən indi həmin məsələni müzakirə etmək fikrində deyiləm. Bir şey aydındır ki, birinci Qarabağ müharibəsində də xalqımızın igid övladları qəhrəmancasına vuruşub, vətən yolunda şəhid olublar, ağır yaralanıblar. Bu müharibədə şəhid düşənlərin də xatirəsi hamımız üçün eyni dərəcədə əzizdir, müqəddəsdir və o müharibənin qazilərinə də dərin minnətdarlıq hissi duyuruq. Birinci müharibənin şəhid və qazi ailələrinə ikinci müharibənin şəhid və qaziləriylə eyni münasibət bəsləmək təklifini də dəstəkləyirəm.

Bununla birlikdə Çingiz Abdullayevə bir çox iradları qəbul edə bilmirəm. Ola bilsin ki, Çingiz müəyyən fikirlərini yetərincə dürüst və anlaşıqlı şəkildə ifadə edə bilməyib. Məncə, onun əsas etirazı ona idi ki, ermənilər öz təbliğatlarında bu iki müharibəni eyni səviyyədə tutur, "birinci müharibədə udmuşuq" "təsəllisiylə" xalqlarını ovutmaq istəyirlər. Bundan da o nəticəni çıxarmaq



istəyirlər ki, bir vaxtlar üstün çıxıblarsa, gələcəkdə də bəxtləri gətirə bilər. Əlbəttə, bu onların növbəti xam xəyallarıdır. Çingizin demək istədiyinin məğzi bu idi ki, indiki ordumuz birinci müharibə zamanı olan ordu deyil. Bəyəm belə deyil? Çingiz heç vəchlə birinci Qarabağ müharibəsini dana bilməzdi, heç olmasa ona görə ki, o günlər biz onunla birlikdə bir çox cəbhə bölgələrində olmuşuq. Ağdamda üç komandirlə - mərhumlar Fred Asiflə, Allahverdi Bağırovla, "Qatır Məmməd" ləqəbli komandirlə şəxsən görüşmüşük. Çingiz hətta bu hərbi hissələrə bir qutu qumbara da gətirmişdi.

Amma bu da faktdır ki, o vaxt ordumuz yetərincə döyüş hazırlığı keçməmişdi, güclü və yeni silahlarımız yox idi, silahlı qüvvələr ayrı-ayrı pərakəndə hissələrdən ibarət idi. Bunları ki, danmaq olmaz. Bunları inkar etsək o müharibədə itirdiyimiz torpaqların nə səbəbdən itirdiyimizi izah edə bilmərik. Odur ki, bəlkə də uğursuz bir ifadəyə görə Çingiz Abdullayevə ağır ittihamlar verməkədalətli iş deyil. Ən azı ona görə ki, bir il bundan qabaq bizə açıq düşmən münasibəti bəsləyən Moskva televiziya kanallarında haqq mövqeyimizi məntiqli və sərrast çıxışlarıyla çatdıran məhz Çingiz Abdullayev idi.

44 günlük vətən müharibəsində möhtəşəm zəfərimiz, doğma torpaqlarımızın, o cümlədən Şuşanı azad etməyimiz hamımızın başını ucaltdı. Millətimizin qürur hissini möhkəmləndirdi. Müzəffər ordumuzun şücaəti, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, qəti mövqeyi, düşünülmüş siyasi addımları tarixi zəfərimizi təmin etdi. Xalqımızın sarsılmaz birliyi qələbəmizin əsas rəhni oldu. Gənc döyüşçülərimizin yüksək vətənpərvərlik ruhunda yetişməsində, xalqın yumruq kimi bir amal uğrunda birləşməsində ədəbiyyatımızın, kinomuzun, teatr və televiziya tamaşalarının da rolu az olmayıb. Odur ki, hər fürsətdə yazıçıları sancmaq nəcib hərəkət deyil.

Bir çox erməni yazıçısının ifrat millətçilik təbliğatı erməni xalqına baha başa gəldi, qonşu xalqın doğma torpaqlarını zəbt etməyə çağıran "ədəbi" əsərlərlə xumarlanan ermənilər heç nə qazanmadan hər şeyi itirdilər. Azərbaycan ədəbiyyatının, Azərbaycan sənətinin, Azərbaycan maarifinin, Azərbaycan siyasətinin yetişdirdiyi nəsil Şuşanın sıldırım qayalarıyla dırmaşıb əlbəyaxa vuruşdu, canlarını fəda etmək bahasına torpaqlarımızı azad etdi. Yerli-yersiz bir-birimizi suçlayanda bunları da unutmayaq".

**Qazi jurnalist Rey Kərimoğlu "Şərq"ə açıqlamasında Qarabağ qazilərinin Çingiz Abdullayevin fikirlərini bölüşmədiklərini dedi:**

- Çingiz Abdullayev yanlış düşünür. Düşüncəsi yanlışdır. Onun birinci açıqlaması da yanlışdır, birincini izah etməyə çalışdığı ikinci açıqlaması da. Yanlış və qüsurludur. Bu, cəmiyyətdə narazılıq yaradan, ziyalıya yaraşmayan fikirlərdir. Belə fikirləşən və danışan adamlar həmişə olub, bu gün də var. Amma onlar Qarabağ müharibəsi haqqında məlumatsızdırlar. 1991-94-cü illər Qarabağ müharibəsində 18.500 nəfər şəhid olub! 3700 nəfər itkin düşüb! 39.500 nəfər yaralanıb! 1991-94-cü illərdə ordu da olub, müharibə də. Təxribatlar olmasaydı, Azərbaycanın ovaxtkı ordusu bir qarış torpağın da işğal olunmasına imkan verməzdi. Müstəqilliyimiz bərpa edildikdən sonra 1991-ci ildə ordu quruculuğu başladı. Artıq 1992-ci ildə ordumuzun kifayət qədər silah-sursatı vardı. Heç kim unutmasın ki, Azərbaycan ordusu Xankəndinin qapısına dayanmışdı. Təəssüf ki, bayaq dediyim kimi, təxribatlar ordumuzun geri çəkilməsinə səbəb oldu. Yeni yaradılmış, 1 yaşlı ordunu 28 il müddətində güclənən, möhkəmlənən, müasir hərbi texnikayla silahlanmış ordu ilə müqayisənin özü qüsurludur. Azərbaycan əsgəri isə həmişə mərdliklə döyüşüb. Son damla qanınadək. Sadəcə, şərait və şərtlər fərqli idi. Ona görə də Qarabağ müharibəsi haqqında kimsə fikir bildirirsə, lütfən, ifadələrinə diqqət etsinlər.

**Rey Kərimoğlu Xalq yazıçısı Anarın müraciətini isə əsl ziyalı mövqeyi adlandırdı:** "Anar müəllim əsl ziyalı nümunəsi göstərdi. Normal yazıdır, fikrini açıq ifadə edib. Qüsurlu yanaşmalarsa cəmiyyətdə parçalanma yaradır. Ali Baş Komandanın milli birlik, həmrəylik siyasətinə də ziddir, dövlətin həmrəylik konsepsiyasına da. Bunun mənfi nəticələri ola bilər. Biz qazilər bəzən bunu hiss edirik, görürük, bəzən tədbirlərə Birinci Qarabağ müharibəsinin iştirakçılarını, qaziləri, şəhid ailələrini dəvət etmirlər. Halbuki hər kəs cəmiyyətdə həmrəyliyə nail olunmasına çalışmalıdır".

Fikir bildirəndə düzgün ifadələrdən istifadə edilməlidir ki, yanlış da anlaşılmasın. Kimsənin yazıçını sancmasına da imkan yaranmasın. Bu da taktikadır. Döyüş taktikasını bilməməyiniz anlaşılandır. Yazı taktikasını ki, bilməlisiniz! Xalqın həssas nöqtələrini də. Xüsusən, əgər danışan xalq yazıçısıdırsa.

**Məlahət Rzayeva**

# ABŞ Qarabağ prosesində oyundan kənar vəziyyətdə qalıb

## Cənubi Qafqazda Ermənistanın qərb qapısı kimi seçilməsi böyük yanlışlıqdır



*"ABŞ yenidən prosesə qayıtmaq və əhəmiyyətli səs olmaq istəyirsə, əlbəttə ki, Azərbaycanın mənafeyini, maraqlarını nəzərə almalı, güclü Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməlidir. Bunun alternativi yoxdur"*

Aynurə Pənahqızı

**ABŞ Azərbaycanla Ermənistan arasında sülhə nail olmaqda kömək göstərə bilər. Bunu ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumu çərçivəsində deyib. O bildirib ki, özü regionda bu məsələ üzərində işləyib:**

"Münaqişə onilliklərlə davam edib. İndi əsas məsələ bunun öhdəsindən gəlməkdir. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında sülhə doğru irəliləməkdə hazırlıq və qətiyyət barədə bildirib. Fikrimcə, ABŞ bu prosesdə öz rolunu oynaya bilər. Hesab edirəm ki, bu gün Vaşinqtonda Azərbaycana və Ermənistana sülh quruculuğunda necə kömək göstəmək barədə düşünürlər. Bu, çətin olsa da mümkündür. Sərhədlərin demarkasiyası da sülh prosesi çərçivəsində həll edilməli olan məsələlər sırasındadır".

**Mövzu ilə bağlı politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, Amerika Birləşmiş Ştatlarının bir ədalətli qlobal güc olaraq prosesdə iştirakı strateji baxımdan arzuolunandır.** Politoloqun sözlərinə görə, çünki bu prosesdə Azərbaycan-Ermənistan münasibətində olan gərginlik, xüsusilə də sərhədlərin müəyyənləşməsi, kommunikasiyaların açılması, ən nəhayət Qarabağ məsələsi, xüsusilə də rus sülhməramlıların Qarabağdan çıxarılması məsələsində Rusiyanın həlledici və yeganə moderator rolu Azərbaycana sərf etmir: "Belə bir qlobal alternativdə olması əlbəttə ki, arzuolunan məsələdir. Ancaq bu başqa bir sualdır ki, Amerika Birləşmiş Ştatlarının Azərbaycana, bütövlükdə Qarabağ məsələsinə münasibəti nə şəkildədir. Burda böyük bir problem var. Çünki hələ də hiss olunur ki, Amerika Birləşmiş Ştatlarının regionda gedən proseslərlə bağlı konkret hərəkət planı, siyasəti yoxdur, heç mövcud da deyil. Əslində, Ermənistanda Amerika Birləşmiş Ştatlarının Cənubi Qafqaz üzrə bütün səfirlərinin bir yerdə yığılaraq bir toplantı keçirməsi də, bilavasitə bunu göstərir. Hiss olunur ki, ABŞ nələrisə özü üçün müəyyən etmək və dəqiqləşdirmək istəyir. Ancaq bütün bunun fonunda yenidən Cənubi Qafqazda qərb qapısı sayılan Gürcüstanı buraxıb Ermənistanı bir mərkəz olaraq seçməsində də ciddi bir yanlışlıq mövcuddur. Çünki məğlub, ordusu darmadağın olmuş, iqtisadiyyatı çökmüş, əhalisi Ermənistanı tərk edən bir zəif dövlətlə regionda strateji planları həyata keçirmək mümkün deyil. Bu, elementar hesablamadır. Ona görə də ABŞ bu prosesdə darmadağın olmuş, çökmüş bir dövləti deyil, qalib ölkə olan Azərbaycan və onun qardaşı, strateji müttəfiqi olan Türkiyə ilə münasibətlər kontekstində hərəkət etməlidir. Bəs, edirmi? Hələlik, biz bunu müşahidə etmirik. Çünki bu gün regionda gedən bəzi proseslərin iradəyə gətirməsində tormozlayıcı məqamlardan biri Fransa dövlətidirsə, digəri bir də Amerika Birləşmiş Ştatlarıdır".

**Politoloq qeyd edib ki, İranla bağlı həm İsrail dövlətinin, həm də onun strateji müttəfiqi olan Amerika Birləşmiş Ştatlarının konkret problemləri mövcuddur:** "Bu fonda Azərbaycanın əhəmiyyəti və önəmi daha da artır. Bununla bərabər ABŞ-ın Azərbaycana münasibəti adekvat deyil. Ona görə də səfir Robert Sekutanın nə deməsindən asılı olmayaraq biz konkret reallığı hərəkətə keçirilən siyasətə baxmalıyıq. Hələ də hiss olunur ki, Amerika Birləşmiş Ştatlarında normal təfəkkürlü insanlar mövcud deyil. Bu insanların böyük əksəriyyəti konkret lobbilər, böyük qlobal maliyyə şəbəkələri tərəfindən idarə olunan insanlardır. Heç kimə sirr deyil ki, Bayden Administrasiyası, başda da Bayden olmaq şərtilə bilavasitə Sorosun maliyyəsi ilə bu seçkilərdə qalib gəlib. Ona görə də fikir verirsinizsə, məhz Bayden Adminstrasiyası gələndən bəri qardaş Türkiyəyə düşmən münasibət göstərilir. Eyni şeyi biz Azərbaycanda və Qarabağda da müşahidə edirik. Bu, Amerika Birləşmiş Ştatlarına nə qazandıracaq? Nəticə etibarilə ABŞ-a heç nə qazandırmayacaq. Necə ki, 44 günlük Vətən müharibəsi dövründə prosesdən kənar qaldı, bu günün özündə də oyundan kənar vəziyyətdədir. Bu cür siyasət davamlı olduğu təqdirdə yenə də ABŞ, Qərb dünyası oyundan kənar vəziyyətdə qalacaq. Belə vəziyyətdə əlbəttə ki, Rusiyanın mövqeləri güclənəcək. ABŞ bunu istəyirsə, buyursun. Çünki Rusiya ilə pis-yaxşı hansısa səviyyədə qardaş Türkiyə ilə birlikdə bu prosesləri tənzimləyə biləcəyik. Çünki bütün məsələlər qarşılıqlı maraqlara söykənən məsələlərdir. Ancaq ABŞ yenidən prosesə qayıtmaq və əhəmiyyətli səs olmaq istəyirsə, əlbəttə ki, Azərbaycanın mənafeyini, maraqlarını nəzərə almalı, güclü Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməlidir. Bunun alternativi yoxdur!".



# Türkiyə öz PUA-larını Amerikanın maliyyə yardımı ilə yaratmayıb

**Cümşüd Nuriyev:** "İnanmıram ki, Menendez kimilərin təklifləri Senatdan keçsin. Həmin sənəddə rəsmi Ankaranın və Bakının addımları, yaxın münasibətləri əsassız ittiham olunur"



**ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri Bob Menendez növbəti erməniрərəst addımını atıb. Senator 2022-ci il müdafiə xərcləri ilə bağlı qanuna əlavə olaraq Türkiyənin silahlı PUA proqramının izlənməsini, o cümlədən Azərbaycana güzəştin aradan qaldırılmasını nəzərdə tutan iki sənəd təqdim edib.**

Menendezin təklif etdiyi dəyişikliklərdən biri "Azadlığı Müdafiə Aktı"na edilən 907-ci düzəlişin dondurulma prosesinin dayandırılması ilə bağlıdır. Təklif "907-ci Düzəliş Haqqında Güzəşti Dayandıran Dəyişiklik" başlığı altında senatora təqdim edilib. Sözügedən sənəddə Azərbaycan və Türkiyəyə qarşı "Bakıdakı reyim Türkiyənin dəstəyi ilə Ermənistan və Azərbaycan arasında dinc yolla və müzakirə edilmiş bir mərhələ yerinə zorakılıq yolunu seçməyə davam edir. Hazırkı iqtidarın və gələcəkdəki bütün iqtidarların Azərbaycana bu cür yardımları dayandırmasının və 907-ci maddəyə tam şəkildə hörmət edilməsinin vaxtıdır" cümləri öz əksini tapıb. Qeyd edək ki, Bob Menendez ermənilərlə yanaşı, yunan lobbilərinə yaxınlığı ilə də tanınır.

**Amerikalı senatorların Azərbaycan və Türkiyəyə qarşı bitib-tükənməz qərəzini "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Bob Menendez ölkə ictimaiyyətinə tanış simadır.** Professorun sözlərinə görə, həmin senator öz ermənipərəstliyi ilə daim seçilib: "Menendez dərk etmir ki, hansısa dövlətə, xalqa qarşı bu qədər nifrət bəsləmək öz ölkəsinin təbliğ etdiyi demokratik dəyərlərə daban-dabana ziddir. Digər tərəfdən onun təklifləri çox mənasızdır. Türkiyə öz PUA-larını Amerikanın maliyyə yardımı ilə meydana gətirməyib. Eyni zamanda Azərbaycan da möhtəşəm qələbəsində, güclü ordu quruculuğunda ABŞ-dan maddi dəstək almayıb. Amerikanın ən çox maliyyə ayırdığı Ermənistan və separatçı reyim idi. Onların da acı taleyi ortadadır. İnanmıram ki, Menendez kimilərin bu cür təklifləri Senatdan keçsin. Həmin sənəddə rəsmi Ankaranın və Bakının addımları, yaxın münasibətləri əsassız ittiham olunur. Türkiyənin Azərbaycana hərtərəfli dəstəyi Ermənistanla bağlı deyil. Bu yaxınlıq iki qardaş xalqın tarixi bağlılığı ilə əlaqədardır. Türkiyə və Azərbaycan əməkdaşlıq məsələsində hansısa kənar güclərin, xarici ölkənin yanaşmasını nəzərə almır".

**C.Nuriyev qeyd edib ki, onun əsas narazılığı Senatla bağlıdır:** "Necə olur ki, "907-ci düzəliş" işğalçı, təcavüzkar Ermənistana, hətta keçmiş sovet respublikalarından heç birinə yox, sadəcə, Azərbaycana şamil olunur?! Bunun arxasında başqa maraqlar durur. Menendez də sifarişlə hərəkət etdiyini düşünürəm. Senatda "səslərin satılması" deyilən bir anlayış var və görünən zamanla bundan istifadə edənlər olur. Menendez də öz şərəfini, mənliyini erməni diasporasının puluna satanlardan biridir. Hesab edirəm ki, həm Azərbaycanın, həm də Türkiyə və Pakistanın parlamentləri bununla bağlı ABŞ Senatına müraciət etməlidirlər".

**İsmayıl Qocayev**

# Azərbaycan yenə sülh çağırışı etdi

## Ancaq hələ də dövlət rəhbərlərinin görüşü təşkil olunmayıb




İsmayıl Qocayev

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov növbəti dəfə Ermənistana çağırış edib. VIII Qlobal Bakı Forumunda çıxış edən Ceyhun Bayramov bir daha Ermənistanla münasibətləri normallaşdırmaqda maraqlı olduğunu vurğulayıb: "Ermənistana qonşuların suverenliyinə, sərhədlərinə hörmətlə yanaşmaq, özünü nəqliyyat dalanından çıxarmaq, inkişaf edən bölgənin bir parçasına çevrilməyi təklif edirik.**

Azərbaycan müharibədə qalib gələn ölkə olaraq, müharibə başa çatandan sonra öz xoş niyyətini göstərərək, birtərəfli müsbət addımlar atıb".

Nazirin sözlərinə görə, humanitar yüklərin Azərbaycan ərazisinə daxil olması, 2020-ci ilin qış aylarında Ermənistana Azərbaycan qaz nəqliyyat sistemi vasitəsilə Rusiyadan qazın verilməsi, avtomobil yolunun Ermənistan tərəfindən istifadə edilməsi Azərbaycan tərəfindən atılan müsbət addımlardır:

"Bütün bu addımlar münaqişənin keçmişdə qalmasının, Azərbaycanın gələcəyə baxışının nümunəsidir. Bu gün forumda Prezident İlham Əliyevin dediyi kimi, biz hələ bunun qarşılığını görmürük, ancaq düşünürük ki, Ermənistan tərəfi bunu nə qədər tez başa düşərsə, Ermənistanın özü üçün daha yaxşı seçim ola bilər".

**Nazirin Ermənistana sülh çağırışı ilə bağlı "Şərq"ə danışan Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev deyib ki, Qarabağ sazişinin bağlanmasından bir il zaman keçməsinə baxmayaraq, müqavilənin bəndlərinin həyata keçməsinə qarant duran Rusiyanın konkret nəticə verən fəaliyyəti görünmür. Partiya təmsilçisi qeyd edib ki, hələ də Azərbaycan və Ermənistan dövlət rəhbərlərinin görüşü təşkil edilməyib:** "Azərbaycan tərəfi dəfələrlə görüşə hazır olduğunu bildirsə də, Rusiyanın protektarantında olan Ermənistan tərəfindən cavab yoxdur. Görünür, böyük sülhün bağlanması üçün Rusiyanın da şərtləri var və bu şərtlər böyük ehtimalla Azərbaycanı qane etmir.

***Politoloq: "Görünür, böyük sülhün bağlanması üçün Rusiyanın da şərtləri var və bu şərtlər böyük ehtimalla Azərbaycanı qane etmir"***

Azərbaycanın xarici işlər nazirinin növbəti dəfə sərhədlərin müəyyənləşdirilməsi və sülh çağırışı Ermənistan üçün xoşməramlı çağırış kimi qiymətləndirilməlidir. Hesab edirəm, sərhədlərin demarkasiyası və bir-birinin ərazi bütövlüyünü tanıyan sənədin imzalanması gələn ilin yazından başlayaraq rallaşacaq. İndi isə tərəflər məcazi mənada desək "qış yuxusu"na gedəcəklər".

**V.Əfəndiyevə görə, son 20-25 il ərzində MDB məkanında baş verən hadisələr mərkəzdənqaçma meyilləri ilə müşahidə olunsa da, əksər postsovet ölkələri Rusiya tərəfindən möhkəm bağlarla bərkidilib:** "Bu bağlar isə sərhədlərin qeyri-müəyyənliyi və düşünülərək süni şəkildə yaradılmış qonşu ölkələrin bir-birinə qarşı torpaq iddialarıdır. MDB-nin Avropa hissəsində davam edən qarşıdurma Azərbaycanın 44 günlük zəfər yürüşündən sonra yeni mərhələyə keçid aldı. Artıq Ukrayna və Moldova itirilmiş torpaqlarının geri qaytarılmasının mümkünlüyünü dərk etməyə başladı. Gürcüstan hakimiyyətinin rusiyayönümlü olmasına baxmayaraq, bu mövzuda güzəştə getmək fikrində deyillər. Hətta güzəşt barəsində düşünsələr də, gürcü xalqı və ictimaiyyəti buna imkan verməz. Azərbaycanın "zəfər yürüşündən" sonra MDB-nin saxta və imitasiya ilə məşğul olan qurum olduğunu konkret dərk edən üzv dövlətlər öz gələcəkləri barədə ciddi düşünməyə başladılar. Rusiya ilə sərhəd olan dövlətlər, xüsusən Qazaxıstan üçün çətin olsa da Türkiyə, Çin və Hindistanla əməkdaşlığa üstünlük verməklə yeni yol xəritəsini müəyyən edib. Rusiya ilə quru sərhədi olmayan digər dörd Orta Asiya ölkələri də Qazaxıstanın planından cəsarətləndilər. Proseslər Rusiyanı çox narahat etdiyindən uzun müddətdir ki, Lukaşenkonun Belarusu de-fakto Rusiyanın tərkibinə qatmaq təklifini rədd edən Putin bu günlərdə yeni ittifaq sazişi imzalamağa vadar oldu. Təəssüf ki, Lukaşenko öz kürsüsünə xalqını satdı. Lakin Putinin yeni SSRİ modelində "dövlət" yaratmaq niyyəti iflas edəcək".

# Zaman dəyişsə də, niyyət dəyişməyib

## Həmsədrlər 44 günlük müharibədən sonra da mövqelərini dəyişmədilər




**Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov ATƏT-in Minsk qrupundan danışıb. Səfir deyib ki, Minsk qrupu Azərbaycan torpaqlarının qayıtmasında heç bir rol oynamayıb. Lakin 2021-ci ilin reallığı 2016- 2017-ci illərin reallığından çox fərqlənir.**

Yəni səfir hesab edir ki, həmsədrlər bundan sonra faydalı ola bilərlər: "Minsk qrupu delimitasiya və demarkasiya proseslerində, iki xalq arasında kommunikasiyanın qurulmasında faydalı ola bilər. Tək lazım olan şey, onların bunu həqiqətən də istəməsidir". E.Süleymanovun sözlərinə görə, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir: "Onlar iki xalq arasında kommunikasiyanın qurulmasında fəaliyyət göstərə bilərlər. Sadəcə buna tam olaraq necə töhfə verməli olduqlarını başa düşməlidirlər".

**Səfirin Minsk qrupu ilə bağlı təklifini "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bunun o qədər də real görünmədiyini deyib. Ekspert bildirib ki, Minsk qrupunun 30 ilə yaxın müddətdə sərgilədiyi fəaliyyət həmsədrlərin bundan sonra necə işləyəcəklərindən də xəbər verir:** "Həmsədrlər 44 günlük müharibədən sonra da mövqelərini dəyişmədilər. Əksinə, yenə də Ermənistanın yanında olduqlarını əyani şəkildə göstərdilər. Xatırlayırsızsa, xarici diplomatların Şuşaya səfəri zamanı ABŞ, Fransa və Rusiya səfirləri Qarabağa getməkdən imtina etdilər. Bunun əvəzində Amerikanın İrəvandakı səfiri Ermənistanın Azərbaycanla sərhəd bölgəsinə gəldi. Yəni Minsk qrupu 27 sentyabr 2020-ci ildən əvvəl hansı mövqedə idisə, bu gün də eyni yanaşmanı sərgiləyir. Zaman dəyişsə də, niyyət dəyişməyib. Ona görə də hesab edirəm ki, vasitəçilərlə bağlı bütün təkliflərə rəsmi Bakı "yox" cavabını verməlidir. Bu format ölkəmizin maraqlarına daban-dabana ziddir. O halda icazə verilə bilər ki, üçlü formatın tərkibi və missiyası dəyişdirilsin və ora Türkiyə, eyni zamanda bizimlə yaxın müttəfiq olan digər dövlətlər qoşulsun".

***"Vasitəçilərlə bağlı bütün təkliflərə rəsmi Bakı "yox" cavabını verməlidir"***

**İsmayıl Qocayev**



# Bəlli dairələrin qələbəmizi etiraf etməyə cəsarəti çatmır

## Amma zamanla bu, baş verəcək və xaricdəki bütün qüvvələr Azərbaycana qarşı qərəzli siyasətə son qoyacaqlar

**Prezidentin köməkçisi Hikmət Hacıyev ADA Universitetində "44 Günlük Zəfər Yolu" mövzusunda keçirilən konfransda çıxışı zamanı bir sıra məqamlara toxunub. Hikmət Hacıyev qeyd edib ki, hər zaman xarici ölkələrin Zəfər bayramlarında iştirak edəndə özünə sual verirmiş ki, nə vaxtsa biz də bu tarixi bayram kimi qeyd edə biləcəyikmi?! Onun sözlərinə görə, hər zaman gündəmdə olan məsələ işğal altında olan torpaqların azad edilməsi idi:**

"Azərbaycan ilk dəfədir müstəqillik tarixində ərazi bütövlüyü təmin edilən ölkə kimi çıxış edir. Artıq Qarabağ mövzusu xarici siyasət mövzusu deyil. Bu artıq daxili məsələmizdir. Ermənistan doktrinasını dəyişdirməli, Azərbaycana qarşı ərazi iddialarından imtina edilməlidir".

Prezidentin köməkçisinin açıqlamasını şərh edən ekspertlərin fikrincə, hələ də Qarabağ məsələsini regiondan kənara çəkməyə, "münaqişə tam həll olmayıb" deyərək kənar gücləri yenidən bölgəyə cəlb etməyə çalışan yaxın və uzaq qüvvələr mövcuddur.

**Siyasi şərhçi Azər Niftiyev "Şərq"ə açıqlamasında deyib ki, 44 günlük Vətən müharibəsində Zəfər əldə etməyimiz və bunun nəticəsində regionda yeni situasiyanın yaranması bəzi xarici dairələrin, qərəzli qüvvələrin yuxusunu ərşə çəkib. Ekspertin sözlərinə görə, onlar hər vəchlə indiki prosesi başqa səmtə çəkməyə çalışırlar:** "Bu gün Azərbaycan qalib, Ermənistan isə məğlub tərəfdir. İslamofobiya, xristian təəssübkeşliyi və digər ziyanlı tendensiyaları təşviq edən dairələr təəssüf ki, Ermənistanın Xocalıda, Gəncədə, Bərdədə, Tərtərdə törətmiş olduğu insani cinayətlərə göz yumurlar. Bütün bunlar göstərir ki, Qərbin məkirli dairələri üçün müqəddəs dəyər yoxdur. Bu əslində bizi narahat etməməlidir. Azərbaycan böyük əhəmiyyətə malik Zəfər qazanıb. BMT qətnamələrində öz əksini tapmış doğma torpaqlarımızı düşməndən azad etmişik. Yəni üzərimizə düşəni artıqlaması ilə etmişik. Ancaq Qələbə yenidir və bəzi beynəlxalq dairələr bəlli səbəblərdən "Qarabağ münaqişəsinin bitməsini" etiraf etməyə cəsarət etmirlər. Amma zamanla bu, baş verəcək və xaricdəki bütün qüvvələr Azərbaycana qarşı qərəzli siyasətə son qoyacaqlar".

**İsmayıl**

# Rusiya dəstək olmadı, İran geri çəkilir

## Tehran Bakı ilə münasibətləri əvvəlki səviyyəyə qaytarmağa çalışır

Aynurə Pənahqızı



**"Azərbaycan Respublikası ilə müştərək komitənin təşkili üçün razılığa gəldik". Bu sözləri İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan deyib. H.Əmir Abdullahiyan Tehran və Bakı arasındakı münasibətlərin müsbət atmosferdə irəlilədiyini qeyd edərək bildirib ki, müştərək komitə iki ölkədə ictimai rəyi və KİV-lərdəki atmosferi idarə etmək üçün fəaliyyət göstərəcək.**

İki qonşu ölkənin əlaqələrində bəzi məsələlərdə fikir ayrılıqlarının olmasını təbii adlandıran H.Əmir Abdullahiyan qeyd edib ki, önəmli olan odur ki, hər iki tərəf maneələri aşmaq üçün ciddi iradə ortaya qoyub. O qeyd edib ki, İran öz qonşularını qohumları hesab edir və qohumluq əlaqələri prinsipi ilə əlaqələrini dəyərləndirir, inkişaf etdirir.

**Mövzu ilə bağlı siyasi şərhçi Turan Rzayşev "Şərq"ə açıqlamasında bildirib ki, İranın xarici işlər nazirinin bu sözü əslində faktiki olaraq İranın Azərbaycanla gərginliyini azaltmağa doğru getdiyini göstərir. Analitik hesab edir ki, bununla İran faktiki olaraq Azərbaycana qarşı geri addım atır:** "Bildiyimiz kimi, bir müddət öncə İran-Azərbaycan gərginliyi yaşandı. Lakin İranın Azərbaycana qarşı atdığı addım tam fiaskoya uğradı. Əlbəttə ki, bunun bir neçə səbəbi var idi. Ən başlıca səbəblərdən biri isə Rusiya və digər ölkələr bu məsələdə ona yardım etmədi. Düzdür, İran zənn edirdi ki, bu addımlarla Azərbaycana hansısa mənada təzyiq edəcək. Ancaq nəticə etibarilə gördü ki, diplomatik və regiondakı siyasi proseslər onun əleyhinədir. Azərbaycana qarşı atdığı bu addım, belə desək, onun özünə qarşı çevrilib. İran tərəfi artıq faktiki olaraq Azərbaycan qarşısında geri addım atır. Bu geri addım atmaq da təsadüfi deyil. Çünki mövcud siyasi vəziyyət hazırda bunu tələb edir".

*T.Rzayev hesab edir ki, İran-Azərbaycan arasındakı gərginlik azalacaq:* "Hər halda Ocaq Nejatın Azərbaycandan qovulması bunun bir növ sübutu idi. Azərbaycan İran qarşısında geri addım atmadı və regionda zəif olmadığını, əksinə, İranla başabaş rəqabət aparacaq gücdə olduğunu göstərdi. İran indiki halda Bakı ilə yenidən münasibətləri tənzimləmək, onu əvvəlki səviyyəyə qaytarmağa, iqtisadi münasibətləri bərpa etməyə çalışır. İstənilən halda Azərbaycan hər zaman qonşularına qarşı dost və sülh şəraitində olub. Bundan sonra da belə davam edəcək. Azərbaycanın mövqeyi heç zaman işğalçılıq olmayıb. İranın sərgilədiyi mövqe onsuz da qərəzli və heç bir məntiqə sığmayan davranışlar idi. Hər halda görünür, İran bu məsələdə dərsini alıb. Bu tip rəsmilərin açıqlaması da onu deməyə əsas verir ki, rəsmi Tehran əvvəlki vəziyyətinə qayıtmaq istəyir və hazırda bu gərginliyi yumşaltmaq üçün müxtəlif vasitələrdən istifadə edir. Hesab edirəm ki, Azərbaycan və İran arasında münasibətlər əvvəlki vəziyyətə qayıtmış kimi görünsə də, müəyyən mənada bu soyuqluq və gərginlik atmosferi qalacaq. Çünki İran Azərbaycana qarşı ciddi səhv buraxdı və onu düzəltmək üçün isə çox çalışmalı olacaq, İrana qarşı inam yenidən yaransın".

# Dünya tam əksi istiqamətə gedir

## Əgər Azərbaycanda dövriyyəyə 500 manatlıq əsginaslar çox buraxılsa, problemlər yaradacaq






**Ölkə başçısının rəhbərliyi ilə ötən ilin 27 sentyabrından başlanan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun tarixi zəfərinin ildönümü münasibətilə xatirə pul nişanları tədavülə buraxılıb.**

Bununla bağlı Mərkəzi Bankda (MB) təqdimat mərasimi keçirilib. Tədbirdə qeyd olunub ki, 500 manat nominallı "ZƏFƏR" xatirə banknotunun üzərində əsas dizayn elementləri kimi Prezidentin "Qarabağ Azərbaycandır!" ifadəsi, ölkəmizin tarixi nümunəsi olan Molla Pənah Vaqifin məqbərəsi, qədim memarlıq nümunəsi hesab edilən Xudafərin körpüsünün, Əsgəran qalasının təsvirləri, həmçinin "8 noyabr Zəfər Günü" sözləri, tarixi qələbəmizin simvolu kimi tanınan Xarıbülbül, şəhid və qazi qanının sübutu olan qırmızı lalələr, məğlubedilməz Azərbaycan əsgərləri və üçrəngli bayrağımızın təsvirləri əks olunub.

**Yeni pulun tədavülü ilə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Zəfər gününə həsr edilmiş 500 manat nominallı əsginasın tədavülə buraxılmasının say etibarilə çox olacağı ehtimal olunur:** "Amma bu artıq onu deməyə əsas verir ki, 500-lük pullar gələcəkdə çoxsaylı şəkildə dövriyyəyə buraxılacaq. Bu nəinki tək korrupsiya məsələsində, eyni zamanda inflyasiyaya da ciddi təsir göstərən amilə çevrilə bilər. Çünki dövriyyədəki pul kütləsinin həcmi artdıqca inflyasiya basqıları da yüksəlir. Əgər daha çox həcmdə 500 manatlıq əsginaslar tədavülə buraxılarsa, müəyyən problemlər yarada bilər. Dünya tam əks istiqamətdə gedir. Məsələn, Avropa Birliyi 500-lük avroların artıq dövriyyədən çıxarılması ilə bağlı qərar verib. Yəni nağdsız ödənişlərin daha çox artması, onlara keçidin daha da sürətlənməsi fonunda yüksək nominallı əsginaslardan imtina edilməsinə start verilib. Fikrimcə, bunun əksinə olaraq Azərbaycanda daha yüksək pulların dövriyyəsi həm korrupsiya, həm də inflyasiya təzyiqinin artması məsələsində gələcəkdə anlaşılmazlıq yarada bilər".

***"Bu nəinki tək korrupsiya məsələsində, eyni zamanda inflyasiyaya da ciddi təsir göstərən amilə çevrilə bilər"***

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# Tariximizin ən böyük amnistiya aktı...

## Bu, ilk növbədə Cənab Prezidentimizin xalqa hədiyyəsidir

**Aynurə Pənahqızı**

**Zəfər Günü münasibətilə Amnistiya Aktı Milli Məclisdə müzakirəyə çıxarılıb. "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi parlamentin dünən keçirilən iclasının gündəliyinə daxil edilib.**

Amnistiya Aktı deputatlar tərəfindən müzakirə edilib. Qeyd edək ki, Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiyanın elan olunması təşəbbüsü ilə çıxış edib. Amnistiyanın tətbiq ediləcəyi şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azadetmə institutlarının dairəsinə görə bu aktın ən böyük amnistiya olacağı ehtimal edilir. Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilən amnistiya aktının ümumilikdə 16 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır. Amnistiya Aktının layihəsinə əsasən, Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin yaxın qohumlarının, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərin, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı hərbi təxribat nəticəsində əlil və ya həlak olmuş şəxslərin yaxın qohumlarının, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Bununla yanaşı, layihəyə görə, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, cəzanın çəkilməmiş hissəsi 6 aydan az olan az ağır və ya ilk dəfə ağır cinayət törətmiş şəxslər, cəzanın sonuna 1 ildən az müddət qalmış məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər. Həmçinin cərimə, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və digər azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulur. Amnistiya Aktı əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi gözlənilir.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Kamal Cəfərov "Şərq"ə açıqlamasında bildirib ki, bu Amnistiya Aktı vətənimizin ərazi bütövlüyü ilə bağlı hər hansısa formada zərər görən bütün şəxslərə şamil edilir. Deputat qeyd edib ki, həm əhatə dairəsinə, həm mahiyyətinə görə bu amnistiya qarşıdan gələn Zəfər Gününə layiqli bir aktdır:** "Bu, ilk növbədə Cənab Prezidentimizin xalqa hədiyyəsidir. Bunu tariximizin ən böyük amnistiya aktı kimi dəyərləndirə bilərik. Çünki o, cəmiyyətdə, respublikada böyük sevincə, şadyanalığa səbəb olub. Bu gözəl, nəcib və humanist təşəbbüsə görə cənab Prezidentə təşəkkür edirəm. Amnistiya Aktının layihəsi müfəssəldir və hesab edirəm ki, Parlamentin fəaliyyəti baxımından da ən mühüm layihələrdən biridir. Bununla yanaşı olaraq, bir neçə məsələyə aydınlıq gətirmək istəyirəm. Birincisi, layihənin 1.1 və 1.2-ci maddələri həm Birinci Qarabağ müharibəsi, həm İkinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Tovuz hadisələri, ümumilikdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edən şəxslərə, medal və ordenlə təltif olunan şəxslərə, müharibədə şəhid olmuş şəxslərin yaxın qohumlarına şamil edilir. İkincisi, bildiyiniz kimi Ermənistan Respublikasının hərbi təxribatları nəticəsində Gəncədə, Bərdədə bəzi ailələrdə anası həlak olan, atası həbsdə olan uşaqlar var. Bu Amnistiya Aktı onlara da şamil olunacaq. Buna görə də bu aktı təqdirəlayiq hesab edirəm".

**Deputat əlavə edib ki, Amnistiya Aktı Ermənistanın təxribatı nəticəsində əlil olmuş və həlak olmuş şəxslərin yaxın qohumlarına da şamil edilir:** "Amnistiya Aktının 4-cü maddəsi də vacib maddələrdən biridir. Çünki amnistiya yalnız həbsdən azad etməni deyil, həm də cəzanın müddətinin azaldılmasını ehtiva edir. Belə ki, 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olmuş şəxslərin cəzası 6 ay azaldılacaq. Bu maddənin 3 mindən çox şəxsi əhatə edəcəyi proqnozlaşdırılır. Qeyd edim ki, böyük ictimai təhlükə törətməyən şəxslər üçün 1 il, az ağır cinayət törətmiş şəxslərin isə həbsdən çıxdıqdan sonra üzərlərində 2 il məhkumluğu olur. Bu amnistiya ilə azadlığa çıxan şəxslərin üzərindən məhkumluq da götürüləcək. Həmçinin, elə hallar var ki, bəzi şəxslər barəsində Amnistiya Aktında göstərilən maddələr üzrə hökm olmasa da prokurorluq orqanlarında istintaq aparılır və ya məhkəmə icraatı olur. Bu amnistiya ilə prokurorluq orqanları cinayət təqibi başlamayacaqlar, başlayıbsa da xitam verəcəklər, eyni zamanda məhkəmələr həmin şəxsləri cəzadan azad etməklə ittiham hökmü çıxardacaqlar. Amnistiya tətbiqinə məhdudiyyətlərlə bağlı qeyd etməliyəm ki, korrupsiya cinayətlərindən vəzifə səlahiyyətlərindən sui-istifadə, dövlət büdcəsindən təyinatı üzrə istifadə etməmə, vəzifə səlahiyyətlərini aşma, rüşvət vermə və digər cinayətlər bu amnistiyanın əhatə dairəsinə daxil deyil".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



## Yaddaşlarda qalacaq

### Fuad Hüseynzadə: "Builki Forum bizlər üçün fərqli əhval-ruhiyyədə keçirilir"

**"VIII Qlobal Bakı Forumunda çıxışı zamanı qalib dövlətin Prezidenti olaraq İlham Əliyev Ermənistanın məğlub duruma düşdüyünü göstərdi".**

**Bunu "Şərq"ə Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə deyib. Birlik rəhbəri bildirib ki, Azərbaycan dövləti siyasi, iqtisadi, hərbi cəhətdən inkişaf etməklə yanaşı, yüksək mədəni tərəqqiyə də nail olub:** "Hazırda Azərbaycan xalqı ötən il qazanılan qələbənin sevincini qürurla yaşayır. Çox müsbət haldır ki, Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri də bu sevinci bölüşürlər. Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi çoxmillətli Azərbaycan xalqının sevincinə daha bir sevinc qatıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin VIII Qlobal Bakı Forumunda Prezident İlham Əliyevin qeyd etdiyi kimi Azərbaycanda 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunması dahi şairə hörmətin nümunəsidir. Ümumiyyətlə, artıq səkkizinci belə bir qlobal forumun keçirilməsi Nizami Gəncəvinin beynəlxalq aləmdə tanıtımı və təbliği üçün mühüm əhəmiyyət kəsb edir".

**F.Hüseynzadə qeyd edib ki, builki forum bizlər üçün fərqli əhval-ruhiyyədə keçirilir:** "Öncəliklə qeyd olunduğu kimi, bu il ölkəmizdə "Nizami Gəncəvi İli"dir. Bu baxımdan forum yaddaqalan olacaq. Digər tərəfdən Zəfər Günləri ərəfəsidir. Qalib ölkədə keçirilir bu tədbir. İllərdir həsrətində olduğumuz Qarabağımıza, Şuşamıza qovuşmuşuq. Müzəffər Azərbaycan Ordusunun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Və həmişəkindən fərqli olaraq bu forumda ölkə başçısı Qarabağ münaqişəsinin artıq həll olunduğunu bəyan etdi. Prezidentin bildirdiyi kimi hər dəfə Qlobal Bakı Forumunda Ermənistan ilə Azərbaycan arasında münaqişə məsələsini qaldırırdı. Bu forumda isə artıq qalib dövlətin Prezidenti olaraq Ermənistanın məğlub duruma düşdüyünü vurğuladı. Ölkə başçısı forumdakı bu çıxışı ilə əcnəbi qonaqlara Ermənistanın vandalizm siyasətini, beynəlxalq qurumların ikili siyasətini, Azərbaycanın gücünü, sülhpərvər olduğunu, o cümlədən öz dahi şəxsiyyətlərinə verdiyi dəyəri göstərdi".

**İsmayıl**

*AZƏRBAYCAN RADİOSU-95*

# Bakı radiosunun ilk addımları



**Arzu İSAYEVA,**
**BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müəllim, filologiya üzrə fəlsəfə doktoru**

**Azərbaycanda müntəzəm radio verilişlərinin başlanması 1926-cı il noyabrın 6-dan hesablansa da, əslində ölkədə radio quruculuğunun tarixi daha bir neçə il əvvələ gedib çıxır. Bu tarixi araşdıran alimlərin bəziləri ölkədə radio quruculuğunun hələ Cümhuriyyət dövründə Gəncədən başlandığını, bəziləri isə bu tarixin əsasının 1923-cü ildə Bakıda qoyulduğunu qeyd edirlər.**

Hələ 1924-cü ildə respublika qəzetlərində radio quruculuğu ilə bağlı çap olunan yazılar Azərbaycanda radionun tezliklə müntəzəm yayıma başlamasını zərurətə çevirirdi. Artıq 1926-cı il noyabrın 5-də "Bakinski raboçi" qəzeti xəbər verirdi ki, paytaxtın bütün meydanlarında və klublarında qoyulmuş səsucaldanlar sabah "danşacaq". Nəhayət, gözlənilən an yetişdi və 1926-cı il noyabrın 6-da SSRİ-nin ən böyük sənaye mərkəzlərindən birinə çevrilmiş Bakının iri küçə və meydanlarında quraşdırılmış radiocihazlar dilə gəldi: Diqqət! Diqqət! Danışır Bakı stasionu!

Bu sözlər yoldan keçənləri ayaq saxlamağa və o vaxt üçün qeyri-adi olan bir olaya - hansısa qurğudan gələn səsi dinləməyə vadar edirdi. Çoxları o zaman qrammofonabənzər qurğudan insan səsinin yayılmasına heyrətlə baxır və lazımınca dərk etmirdi ki, bu cansız qurğu bəşər dühasının yaratdığı böyük bir kəşfin - radionun artıq Azərbaycana da geniş ayaq açdığından xəbər verir.

* * *

İlk günlərdə Bakı studiyası öz verilişlərini axşam saatlarında və 60 dəqiqə ərzində yayımlayırdı. Lakin təxminən bir aydan sonra bu verilişlərin həcmi üç saata çatmışdı və radioya indi təkcə Bakıda deyil, onun ətrafında da maneəsiz qulaq asa bilirdilər. Verilişlər üç dildə - Azərbaycan, rus və erməni dillərində gedirdi. Ara-sıra yəhudi dilində də verilişlər səslənirdi. Verilişlərin, indiki mənada sistemli proqramı yox idi. Studiyadan, əsasən, rəsmi qəzetlərin baş məqalələri oxunurdu, siyasi xadimlər və şairlər çıxış edirdilər. Eyni zamanda radio ilə konsert proqramları, xanəndələrin çıxışları, müxtəlif məzmunlu elanlar səslənirdi. Konsertlərə daha geniş yer verilirdi. Təsadüfi deyildir ki, 1926-cı ilin noyabr-dekabr aylarında radio ilə 40 konsert verilmişdi. Əhali bu konsertləri çox maraqla dinləyir, xanəndələrin çıxışlarına münasibət bildirirdi.

İlk vaxtlarda ictimai yerlərdə, o cümlədən istehsalat müəssisələrində keçirilən disskusiyaların əsas mövzularından biri də "danışan qutu" ilə bağlı idi. Həmin vaxtlarda mətbuatda radionun ilk verilişləri barədə ara-sıra yazılar verilsə də, Bakı studiyasının "mətbəxini", onun struktur və fəaliyyətini əks etdirən heç bir material dərc olunmamışdı. Əslində fəaliyyətə başladığı 5-6 ay ərzində bu studiya bir informasiya və yaradıcılıq mərkəzi kimi deyil, daha çox texniki qurum kimi diqqəti cəlb edirdi.

Müntəzəm radio yayımının başlanması ölkədə radio qurğularının və ötürücülərin sayının artmasını tələb edirdi. Radio bürosunun bu istiqamətə yönələn səyləri nəticə verdi. Əgər 1926-cı ildə Bakıda 50 radioqurğu var idisə, bir il sonra onların sayı 120-ni keçmişdi. Artıq 1927-ci ildə Naxçıvanda, yenicə Stepanakert adlandırılmış Xankəndidə də radio həvəskarları dərnəkləri yaradıldı. Qubada, Şəkidə, Lənkəran və Astarada ötürücü stansiyalar tikildi. 1928-ci ildə kənd yerlərində radio qurğularının sayı 185-ə çatmışdı.

1927-ci ilin fevral-mart aylarından etibarən radio tədricən kadrlar toplamağa, efirə yeni məzmun verməyə və öz işini canlandırmağa başlayır. Mahiyyətcə, radionun ilk 5 ilini təşəkkül dövrü, ciddi sınaqlar və formalaşma dövrü kimi qiymətləndirmək olar. Bu dövrdə, ilk addımlarını atan Bakı radiosu, həmin mərhələnin işıqlı simaları, radiomuzun kövrək iş qaydaları o illərdə radioda çalışmış, mikrofon qarşısında canlı efirin bir çox macəraları ilə üzləşmiş ilk əməkdaşların hafizəsində daha yaxşı qalmışdır. Bu baxımdan radionun ilk diktoru olan İsmayıl Əlibəylinin professor Qulu Məhərrəmlinin "Radio dərsləri" kitabında öz əksini tapmış xatirələri çox xarakterikdir.

* * *

Bakı studiyası yayıma başlayandan bir neçə ay sonra - 1927-ci ilin iyununda diktorluğa başlamış İsmayıl Əlibəyov xatırlayır ki, doğulduğu Ağdaş rayonundan Bakıya gəlib Politexnik İnstitutunda oxuduğu illərdə radio ilə də əməkdaşlığa başlayıb. Onun dediyinə görə, Radio studiyası Kommunist küçəsində (indiki İstiqlal - A.İ.), hazırda AMEA-nın Rəyasət Heyətinin binasında, üçüncü mərtəbədə, sol guşədə yerləşirdi. Studiya üç otaqdan ibarət kiçik bir idarə idi. Birinci otaqda bütün divar boyu böyük lampalarla təchiz olunmuş aparatlar qoyulmuşdu. Bu, şəhər translyasiya şəbəkəsinin mərkəzi məntəqəsi idi. Aparatları bir nəfər növbətçi texnik idarə edirdi.

İkinci otaq studiyaya giriş otağı idi. Efirə çıxmaq üçün dəvət olunanlar studiyaya keçməzdən əvvəl öz növbələrini gözləyirdilər. Bundan sol tərəfdə kiçik bir kabinə var idi. Bu kabinədən studiyanın içərisini görmək və nəzarət etmək üçün bir pəncərə açılmışdı. Pəncərənin qarşısında adi bir çamadanın içində qurulan aparat bir tərəfdən studiyanın mikrofonunu, digər tərəfdən isə nəqledici xətti birləşdirirdi. Bu aparatı bir nəfər texnik idarə edirdi. Onun adı İzrail Qotlib idi.

Mən müdirlə görüşüb burada işləmək üçün gəldiyimi bildirdim. Çox həyəcan keçirirdim. Çünki o zaman bu, qeyri-adi, yeni bir iş idi. Hündürboylu, cüssəli bir adam olan müdiri mən 1921-ci ildə Azərbaycan komsomolunun qurultayında görmüşdüm. Familiyası Verle idi. O mənə:




- Səsinizi mikrofonda yoxlayarıq. Əgər veriliş keyfiyyətli çıxsa, qalıb işləyə bilərsiniz, - dedi.

Mikrofon qarşısında tələsib çaşmamaq, sakit və adi bir tərzdə danışmaq haqqında bəzi məsləhətlər verdi. Sonra məni studiyaya aparıb mikrofon qarşısında oturtdu. Mizin lampasını yandırıb studiyadan çıxdı. Bu dəmdə mən özümü əfsanəvi bir aləmdə hiss edirdim. Nəhayət, iradəmi toplayıb oxumağa başladım. Təxminən 25 dəqiqədən sonra studiyanın qapısı açıldı. Müdir məni diktor vəzifəsinə qəbul etdiyini bildirdi. O gündən - iyun ayından etibarən mən hər gün axşam saat 19:00-dan 23:30-a qədər bu vəzifədə çalışmağa başladım.

Radio verilişləri rus və Azərbaycan dillərində aparılırdı. Bundan əlavə erməni dilində "Kommunist" radio qəzetəsi verilirdi. Rusca verilişləri çox zaman Verle özü aparırdı. Qotlib və mən ona kömək edirdik. Bir neçə aydan sonra, yəni 1927-ci ilin payızında mən baş diktor vəzifəsinə təyin olundum. Bu zaman Arnold Martirosov və daha sonra Yelena Orbeliani rus diktorluğuna qəbul edildilər.

Bədii və musiqi verilişləri o zaman müəyyən bir sistem üzrə qurulmuş proqramla deyil, icraçıların hazırladıqları repertuar əsasında müdirin özü tərəfindən tərtib edilən gündəlik proqramla gedirdi. Çünki radioda nə Qərb, nə də Şərq musiqisi rəhbəri hələ yox idi. 1927-ci ilin payızına yaxın Şərq musiqisinin rəhbəri kimi Zülfüqar Hacıbəyov, Qərb musiqisi rəhbəri sifətilə professor Presman kollektivimizə daxil oldular. Hərçənd kollektivimiz o zaman kiçik idi, lakin hazırladığımız verilişlər keyfiyyətcə məzmunlu, maraqlı, kəmiyyətcə xeyli zəngin idi. Burada o zamanın məşhur incəsənət xadimləri: Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Hüseynağa Hacıbababəyov, Hüseynqulu Sarabski, Qurban Pirimov, Lazar, Saşa Ohonezaşvili, Qrişa Badalov, Cahan Talışinskaya, professor Bretanitski, professor Speranski, Vladimir Kozlov, habelə Vyana dirijoru Ştrassenin rəhbərliyi ilə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının orkestri çıxış edirdi.

Ədəbi, ictimai və siyasi mövzularda verilişlərimiz, o cümlədən radio qəzeti, son xəbərlər, gündəlik metereoloji məlumatlar və s. müvəffəqiyyətlə aparılırdı. Bu materiallar lazımi diqqət və səliqə ilə möhtərəm əməkdaşımız Qubad Qasımovun rəhbərliyi altında xüsusi bir qrup tərəfindən hazırlanırdı.

1928-ci ildə kollektivimizə Azərbaycan diktoru sifəti ilə Raya İmanzadə, daha sonra Ənvər Həsənov daxil oldular. Beləliklə, Azərbaycan radiosunda diktor qrupu bir qədər də genişləndi. Daha sonra o dövrdə görkəmli bəstəkar sayılan Müslüm Maqomayev radiostudiyanın bədii rəhbəri, yazıçı Məmməd Səid Ordubadi isə İctimai-siyasi və ədəbi dram verilişləri redaksiyasının baş redaktoru təyin olundular. Bu böyük şəxsiyyətlərin radioya gəlişi Azərbaycan radiosunun inkişaf tarixində yeni mərhələ açdı.

# Hamı bilməlidir

## 7 dəqiqədən sonra ölüm təhlükəsi var

**Dünən Naftalanda bir ailə dəm qazından zəhərlənib. Hadisə rayonun Qaşaltı kəndində baş verib. 1984-cü il təvəllüdlü Mustafayev Xəyyam Yunis oğlu və həyat yoldaşı, 1989-cu il təvəllüdlü Heydərova Sevil İman qızı yaşadığı mənzildə dəm qazından zəhərlənmə diaqnozu ilə xəstəxanaya çatdırılıb. Faktla bağlı araşdırma aparılır.**



**Dəm qazı zəhərlənmələri daha çox hamam otaqlarında baş verir**

**Baş verən hadisəni "Şərq"ə dəyərləndirən təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev bildirib ki, havalar soyuduqca insanların qaz cihazlarına, istiliyə olan tələbatı artır:** "Evləri qızdırmaq üçün mərkəzi istilik sistemi olmayan mənzillərdə, həmçinin hamam otaqlarında qaz cihazları və avadanlıqları işə düşür. Hamam otaqlarında qışda havalar soyuq olduğu üçün nəfəsliyi bağlı saxlamaq, qapının aşağı hissəsində dəliklərin olmaması da dəm qazından zəhərlənmə hallarını qaçılmaz edir. Təəssüf ki, hər il qış aylarında dəm qazından boğulma halları ilə bağlı xəbərlər eşidirik. Maarifləndirmə işi nə qədər çox aparılsa belə, yenə də insanlar öz həyatlarına biganə yanaşırlar. Qazla bağlı təhlükəsizlik qaydalarına məsuliyyətsizlik edirlər. Dəm qazının qurbanına çevrilməmək üçün standartlara cavab verməyən, lakin evdə olan qaz cihazlarından istifadə, kənar müdaxilə etməmək, tüstü bacalarını ildə iki dəfə təmizləmək, evin havasını gün ərzində bir neçə dəfə dəyişmək, hamam otaqlarında nəfəslik və ventilyasiya olmasını təmin etmək lazımdır. Yəni standartlara uyğun olmayan qaz cihazlarını, yaxud ehtiyat hissələrini almaq, kustar üsulla hazırlanan qaz cihazlarını işlətmək, qeyri-metal borular ilə evə qaz xətti çəkmək dəm qazını yaradan əsas amillərdir".

*Ekspert əlavə edib ki, hələ də bəzi insanlar kustar üsulla hazırlanan, mənşəyi, istehsalçı firmanın adı və uyğunluq sertifikatı olmayan qaz cihazlarını alır, istifadə edirlər:* "Bu, potensial təhlükə riskidir ki, insanlar onu nəzərə almırlar. Dəm qazı iysiz, dadsız və rəngsizdir. Havadan yüngül qazdır. Ona görə onu hiss etmək olmur. Ancaq ilkin əlamətlərindən dəm qazı zəhərlənməsini bilmək olar. İnsana dəm qazının təsiri baş gicəllənməsi, baş ağrısı, ürək bulanma, qusma və halsızlıq kimi hallarla təsir göstərir. Dəm qazını, yəni karbon monoksidi yaradan səbəb isə yanma prosesinin düzgün getməməsidir. Natamam yanma nəticəsində ayrılan qaz karbon 4 oksid əvəzinə karbon 2 oksidə çevrilir. Yanma düzgün gedərsə, ayrılan qaz karbon 2 oksidə çevrilərək xaric olur. Ona görə insanlar bilməlidirlər ki, dəm qazının yaranmasına səbəb qaz sobalarında yanma prosesinə düzgün riayət olunmamasıdır. Yəni soba norma və standartlara uyğun deyil, qazı tam yandırmır".

**E.Nurəliyev həmçinin vurğulayıb ki, əgər tüstü borularında deşik, çat olarsa, yenə də yanma prosesi düzgün getməyəcək:** "Tüstü boruları yamaq, kəsik, deşik olmalı deyil. Tüstü boruları zədəli olarsa, bu, dəm qazının yaranmasına birbaşa səbəbdir. Fikir versək, dəm qazından zəhərlənmə hallarının əsasən evin yataq otaqlarında və hamamda baş verdiyini görərik. Ən çox isə hamamda dəm qazından zəhərlənməyə şahidlik edirik. Çünki hamam otaqları standartlara cavab vermir. Normalda hamam otaqları minimum 7kv olmalıdır. Ancaq 2-3 kv olan hamam otaqları da var ki, orada kustar üsulla hazırlanan, yaxud da "su çəni", " pitiminutka" deyilən qaz cihazı qoyulub".

**E.Nurəliyev qeyd edib ki, dəm qazı olan hava ilə insan tənəffüs etdikdə 7 dəqiqədən sonra ölüm təhlükəsi ola bilər:** "Otaqdakı hava kütləsinin 0.1 faizinin dəm qazı olması insan ölümünə səbəbdir. Hamam otağının qapısının aşağı hissəsində yerləşən xırda dəliklər içəridə hava ventilyasiyası üçündür. Orada nəfəslik daim açıq olmalıdır. Bədbəxt hadisələr baş verməsin deyə bunlara məsuliyyətlə yanaşmaq lazımdır".

Müsahibimiz diqqətə çatdırıb ki, dəm qazından zəhərlənmə olarsa, həmin insanı otaqdan bayıra, təmiz havaya çıxartmaq, əynindəki paltarın yaxasını açmaq, yarıoturaq vəziyyətdə alnına soyuq kompres qoymaq və ehtiyac olarsa, süni nəfəs vermək labüddür: "Əgər huşu özündədirsə, isti, yaxud limonlu çay verib, təcili tibbi yardım xidməti çağırılmalıdır. Bundan başqa, insanların evdə riayət etməli olduğu müəyyən təhlükəsizlik qaydaları var ki, onlara əməl etmək bədbəxt hadisələrin qarşısını alır. Qaz cihazını yandıran zaman evdə qaz qoxusunun olub-olmamasına əmin olmaq, daha sonra kibriti çəkərək qazı yandırmaq lazımdır. İnsanlarda çöldən evə girən kimi dərhal işığı yandırmaq adət halını alıb. Ancaq bu, təhlükəlidir. Ola bilsin ki, ailə üzvləri evdə olmayanda qaz sızması yaransın və işığı yandıran zaman partlayış baş versin. Əgər qaz qoxusu hiss olunarsa, onda qapı-pəncərəni açmaq, evin havasını dəyişmək, elektrik cihazlarından istifadə etməmək və aidiyyəti üzrə müvafiq quruma məlumat vermək lazımdır".

**Sücayət Mehti**

# Qazın, işığın, suyun, ərzağın qiyməti qalxır

## Minimum əmək haqqının 300 manat müəyyənləşməsi də insanların həyatına müsbət təsir etməyəcək



**Azərbaycanda gələn il minimum aylıq əməkhaqqı 250 manatdan 300 manata qaldırılır. Bu məsələ "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində əks olunub.**

Bundan əlavə, layihəyə əsasən ünvanlı sosial yardımın təyin edilməsi üçün ehtiyac meyarının 170 manatdan 200 manata qaldırılması da təklif edilir.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Fuad İbrahimli "Şərq"ə açıqlamasında deyib ki, minimum əmək haqqının şəffaf şəkildə təyin edilməsi üçün ilk növbədə istehlak səbəti müəyyənləşdirilməlidir. Ekspertin sözlərinə görə, bu gün təxmini araşdırmalar onu göstərir ki, bu, 425-450 manat civarındadır:** "Ümumiyyətlə, sovet dövrünün də əsas problemlərindən biri real istehlak səbətinin mövcud olmaması ilə bağlı idi. Bu gün insanın normal yaşaması üçün müəyyən bir aylıq istehlak səbəti olmalıdır. Bu gün dəqiq demək olmaz ki, minimum əmək haqqı 250, 300, yaxud da ki, 400 manatdır. Hesab edirəm ki, bunun üzərində Elmi Tədqiqat İnstitutları, Dövlət Nəzarət Orqanları bir yerdə birləşməli və vahid istehlak paketi hazırlamalıdır. Bura təkcə qida yox, yeri gələndə ayda bir dəfə insanın normal şəkildə mədəni, maarif qurumlarına ziyarəti, sosial paket, tibbi xərclər və s. daxil olmalıdır. Yəni insanların normal yaşamasından ötrü istehlak səbəti müəyyənləşdirilməlidir. Yeri gələndə də hər ay nəsə bahalaşanda onun avtomatik indeksləşməsi getməli və təsiri həll olunmalıdır. Bu gün 250 manat onsuz da bilirik ki, heç bir normal yaşayış üçün kifayət deyil, yəni gəlin reallığı etiraf edək. Bu gün vətəndaşın istifadə etdiyi istehlak məhsullarının, qazın, işığın, suyun qiyməti qalxır. Avtomatik sürətdə ona uyğun olaraq, respublika ərazisində ərzaq məhsullarının qiyməti də artıb. Yəni demək istəyirəm ki, onsuz da qiymətlər qalxır və əlavə xərclər də daxil olur insanın həyatına. Bütün bunların indeksləşməsi götürüldükdə isə əlbəttə ki, bu məbləğ kifayət deyil. Ona görə də bunun şəffaf şəkildə təyin edilməsindən ötrü birdəfəlik normal şəkildə istehlak səbəti müəyyənləşdirilməlidir".

**Aynurə Pənahqızı**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Körpə Çinar

**Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev işğaldan azad olunmuş Zəngilanda ilk çinar ağacı əkdilər.**

Nə xoşbəxtsən, körpə çinar!
Xan çinarım, bəy çinarım.
Gör kimlərin əllərindən
Sən su içdin, müjdə çinar!

Xoşbəxtsən ki, Ərdoğanın şücaəti,
Xoşbəxtsən ki, İlhamımın nəcabəti
Hopacaqdır köklərinə...
Sən qulaq as sözlərimə:
Yalvarıram, körpə çinar!
Möhkəm sarıl bu torpağa.
Apar bizi durnalartək,
Xoş sabahın nübarıtək,
Aydın, nurlu bir bahara.
Körpə çubuq budaqların
Ümman olsun, orman olsun.
Keçmişlərdən gələcəyə
Dastan söylə, nağıl danış...
Yalvarıram, qoyma bir də
Zəngilanın göylərində
Qatı, qara duman olsun.
Körpə çinar, sən tarixsən...
Körpə çinar, sən qalibsən!
Körpə çinar, xoş gəlibsən
Öz yurduna, öz yuvana...

***Günər,***
***26 noyabr 2021***

# "Kənd məktəblərinə üz tutan müəllimlərin əmək haqları artırılsın"

## Bu, onların gələcəkdəki seçimlərinə daha effektiv təsir göstərər

**Azərbaycanda xüsusi təhsilə cəlb olunan 12 380 nəfərin valideynlərinə və yaxud digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisələrinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda ödənilən müavinətin məbləğinin 2,3 dəfə artırılaraq 22 manatdan 50 manata çatdırılması nəzərdə tutulub. Bu məsələ, "2022-ci il dövlət büdcəsi zərfi haqqında" qanun layihəsində əksini tapıb.**



Sənədə əsasən, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş 20 min nəfərə qədər gənc mütəxəssislərin kənd rayonlarındakı ümumi təhsil müəssisəsinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədilə onların kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqı üzrə verilən kompensasiyanın məbləği 50 faiz artırılaraq 60 manatdan 90 manata çatdırılacaq.

Əksər hallarda müəllimlərin müəyyən səbəblərdən kənd məktəblərində işləmək istəmədiyinin şahidi oluruq. Bu qərar həmin müəllimlərə seçimlərinin dəyişməsində nə dərəcədə stimul ola bilər?

Sualımızı cavablandıran təhsil eksperti Elçin Əfəndi "Şərq"ə rayon məktəblərində işləməyə gedən müəllimlər üçün "H2" əmsalının hesablandığını bildirib: "Yəni mövcud əmək haqqının ikiqatı veriləcək. İndiki qərara əsasən orada qalacaq müəllimlərə veriləcək kirayə haqqının və əlavə xərclərin miqdarı artdı. Bu artım da gələcəkdə müəllimlərin növbəti Müəllimlərin İşə Qəbul (MİQ) imtahanlarında rayonlarda yaradılmış vakant yerləri seçməsinə mühüm töhfə verəcək. İndiyə qədər daha çox Bakı və Bakıətrafı vakant yerlər seçilirdi. Ucqar dağ kəndlərində olan məktəblərə maraq göstərilmirdi. Düşünürəm ki, bu qərardan sonra həmin yerlərdən üç vakant yer çıxarılsa, onun biri, ikisi seçiləcək. Bu qərar sırf onların yaşam şəraiti, kirayə xərcləri ilə bağlıdır".

**Ekspert tədris üçün kənd məktəblərinə üz tutan müəllimlərin əmək haqlarında da artımın olmasının vacib olduğunu vurğulayıb:**

"Bu, onların gələcəkdəki seçimlərinə daha effektiv təsir göstərər. Ümid edirəm ki, Təhsil Nazirliyi və ya digər qurumlar bu haqda da qərar qəbul edəcəklər".

**Günəş Mərd**

# Azercell-dən avtomatik balans artırılması imkanı

## "Birbank" mobil tətbiqində lider operatorun abunəçiləri üçün avtomatik ödəniş xidməti yaradılıb




**5 milyondan artıq abunəçinin seçimi olan "Azercell Telekom" istifadəçilərinin həyatını rahatlaşdırmaq üçün yeni texnoloji həlləri hazırlamaqda davam edir. Gündəlik iş və məişət qayğıları bəzən mobil nömrənin balansına vaxtlı-vaxtında nəzarət etməyə əngəl törədir. Məhz bu prosesi sadələşdirmək üçün Azercell-in təqdim etdiyi növbəti yenilik bütün Azercell Fakturasız Xətt abunəçilərinə öz nömrələrində balansı avtomatik artırmağa imkanını verir.**

Noyabr ayından etibarən Azercell şirkəti "Kapital Bank" ASC-nin "BirBank" mobil tətbiqin daxilində "Mobil nömrənin balansının avtomatik artırılması" xidmətini istifadəyə verməklə abunəçiləri üçün mobil tətbiqə bağlı olan bank kartı hesabından avtomatik qaydada nömrəsinin balansına ödənişləri həyata keçirməyi mümkün etdi.

Ödənişləri bir neçə meyara uyğun olaraq tənzimləmək mümkündür. Abunəçi istərsə, ödəniş üçün müəyyən tarix seçə bilər. Bu zaman hər ay həmin tarixdə nömrənin balansı avtomatik olaraq "Birbank" tətbiqində qeydiyyatda olan bank hesabından artırılacaq.

Avtomatik ödəniş üçün digər meyar - mobil nömrənin balansının minimum müəyyən edilmiş həddə çatması ilə bağlıdır. Bu funksiya seçildiyi halda, nömrənin balansı həmin həddə çatdıqda, avtomatik olaraq ödəniş baş tutacaq.

Abunəçi avtomatik ödəniş üçün mobil nömrə balansının son istifadə tarixini də seçə bilər. Abunəçilər bu xidməti aktivləşdirmək üçün "BirBank" mobil tətbiqində müvafiq imkanlardan birini seçməlidirlər. Qeyd edək ki, bu imkan ilk olaraq Azercell Fakturasız Xətt abunəçiləri üçün istifadəyə verilib.

Avtomatlaşdırılmış balans artırılması xidmətinin tətbiqi abunəçilərin vaxtına qənaət etməsinə imkan yaradır, onların işini asanlaşdırır. Artıq abunəçilərin daim balansı izləməsinə, balansın tükənməsi və istifadə imkanın aşılması üzündən xəttin bağlanması kimi məqamlar üçün narahat olmasına lüzum qalmır. Avtomatik ödəniş xidməti aktivləşdirib müvafiq meyarlardan birini seçməklə Azercell Fakturasız Xətt abunəçisi nömrəsinin daim işlək olmasından əmin olacaq.

Müştəri məmnuniyyətini öz işinin əsas prinsipi hesab edən Azercell gündəlik həyatı rahatlaşdıran rəqəmsal xidmətlərin çeşidini artırmağı qarşısına məqsəd qoyub.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2228



# Dünyadakı cənnət 2050-ci ildə yox olacaq!

### NASA dünyanı gözləyən fəlakəti elan etdi

**NASA və USGS (ABŞ Geoloji Araşdırma Departamenti) araşdırmasına görə, hazırkı qlobal istiləşmə davam edərsə qarşıdakı 25 il ərzində Maldiv adalarının 80 faizi yox olacaq.**

Maldivlər 2050-ci ilədək yaşayış üçün uyğunsuz vəziyyətə gələcək. "Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, bu haqda ABC News məlumat yayıb. Məlumatda qeyd olunur ki, NASA və USGS apardığı təhqiqat iqlim dəyişikliyi səbəbindən dəniz səviyyəsinin yüksəlməsi, 1192 ada üzərində dayanan Maldivlərin gələcəyini təhdid edir. Bu gedişlə maldivlər 2050-ci ildə yer üzündən silinə bilər. Maldivlərin Prezidenti İbrahim Mühammed Salih BMT-nin 26-cı İqlim Dəyişikliyi Konfransında çıxışı zamanı adaların bir-bir sular altında qaldığını söyləyib: "Bu gedişatı dayandırmasaq, Maldivlər əsrin sonunadək yox olacaq". Adaların 90 faizində artıq eroziya başlayıb, 97 faizində isə şirin su ehtiyatları tükənmək üzrədir. Mütəxəssislər hesab edir ki, dünyadakı cənnəti - Maldivləri xilas etmək üçün təcili surətdə beynəlxalq səviyyədə çalışmalara başlanmalıdır.

**Məlahət**

# ABŞ-da yeni şəxsi təyyarə sınaqdan keçirilir

### Bu təyyarə tıxacların qarşısını almağa və atmosferə atılan karbon qazı emissiyasını azaltmağa imkan verəcək




**Vaşinqton Dövlət Universitetində (WSU) tədqiqat qrupu yeni təyyarənin komponentlərini sınaqdan keçirir. Şəxsi təyyarə tıxacların qarşısını almağa və atmosferə atılan karbon qazı emissiyasını azaltmağa imkan verəcək.**

Aviatravel.az bildirir ki, bu o deməkdir ki, təyyarə şaquli uçuş, eniş və havada qalması üçün elektrik enerjisindən istifadə edəcək. Öz növbəsində, layihənin mühəndis komandası dartma və avtomobil idarəetməsini optimallaşdırmaq üçün aerodinamik konfiqurasiyaları öyrənir. WSU məzunu Stiven Tibbitsin rəhbərlik etdiyi ZEVA Aero, eVTOL təyyarəsinin işləyən prototipini hazırlayıb. ZEVA Aero prototipi 80 km-ə qədər məsafəyə 257 km/saat sürətlə uçmaq üçün nəzərdə tutulub. Bu unikal vasitə əvvəlcə havada uçan vertolyot kimi fəaliyyət göstərir, sonra isə təyyarə kimi üfüqi şəkildə uçmaq üçün əyilir.







# Hər hektardan 20 min qazanacaqlar

### Dünyada ən bahalı baharatın - zəfəranın yığımına başlanılıb

**Məlahət Rzayeva**

**Türkiyənin Bursa bölgəsində Kənd Təsərrüfatı və Meşəçilik Müdürlüyü tərəfindən həyata keçirilən layihə çərçivəsində 2 ay əvvəl əkilmiş zəfəran bitkisinin yığımına başlanılıb. Layihə çərçivəsində Yenişəhər və İnegöl əyalətlərində 6 fermerlə iş birliyi qurulub.**

"Şərq" "milliyyet.com"a istinadən bildirir ki, bu əyalətlərdə baxımsız qalmış torpaqların zəfəran yetişdirmək üçün uyğun gəldiyi müəyyənləşdikdən sonra işə başlanılıb. Zəfəranın çiçəkləri, erkəyciyi ayrı-ayrı toplanır. Hərəsinin öz üstünlüyü var. 1 hektar ərazidə yığılacaq zəfəranın 100 min lirə (təxminən 20 min manat) gəlir gətirəcəyi bildirilir. Bölgənin kənd təsərrüfatı və meşəçilik müdiri Həmit Aygül AA müxbirinə açıqlamasında qeyd edib ki, zəfəran çox faydalı bitkidir, lakin Türkiyədə az becərilir. Hazırda əsas hədəf daha çox bölgədə zəfəran yetişdirilməsinə nail olmaqdır. Çünki bu bitki həm orqanizmə çox faydalıdır, həm də qiyməti bahadır: "Zəfəran istifadə olunmamış və qumlu torpaqda yaxşı yetişir. Dünyanın ən bahalı baharatıdır. Bir çox sahələrdə istifadə edilə bilir, rəngi də gözəldir, ətri də. Güclü antioksidan və orqanizmi qüvvətləndirən təsirə malikdir. Zəfərandan tibbi müalicələrdən tutmuş qidaların hazırlanmasına qədər istifadə olunur". Əslində, bütün bunlar bizim bildiyimiz şeylər. Amma təəssüf ki, Azərbaycanın Bilgəh, Mərdəkan, Şüvəlan kimi qəsəbələrində yetişdirilən zəfərana əhali həsrətdir. Bəlkə də yetişdirilir, amma hara gedir, kimlər satır... bilinmir. Satışda olanlarsa əsasən İran zəfəranıdır. Yeri gəlmişkən, dünya üzrə zəfəran istehsalının 65 faizi İranın payına düşür. Azərbaycan da bu siyahı-







da yer ala bilər. Əgər düzgün əkin-biçin olsa. Türkiyədə isə fermerlər zəfəran yetişdirilməsindən artıq gəlir əldə etməyə başlayıb. Xüsusən də qadınlar. Tarlada çalışır, qazanır, iqtisadi gəlir əldə edirlər.

# Turistlər yenidən Parisə axışır



**Turistlər yenidən Parisi canlandırıblar.**

**Aviatravel.az bildirir ki, xarici turistlər yenidən Parisə gəlməyə başlayıblar. Turistlərin Parisə dönüşü Fransa paytaxtının iqtisadiyyatını da yenidən canlandırıb. Sentyabrda Parisə təyyarə ilə 350 min turist gəlib. Turistlərin sayı 2019-cu illə müqayisədə 60 faiz azdır. 2020-ci illə müqayisədə isə 2 dəfə çoxdur. Şəhər, eləcə də suvenir mağazaları turistlərlə dolur.**

***Xatırladaq ki, 2019-cu ildə COVID-19 pandemiyası başlamazdan əvvəl, Paris 38 milyon turist qəbul etməklə, dünyada birinci yeri tutub.***

# İstanbulda siam əkizləri əməliyyatla ayrıldı

### Əkizlər artıq 16 aylıqdır



**Kamerunlu siam əkizləri Elizabet və Meri İstanbulda 27 saatlıq uğurlu əməliyyatdan sonra ayrılıblar.**

**Əkizlər artıq 16 aylıqdır. Elizabet və Meri Kamerunda birləşmiş əkizlər kimi dünyaya gəliblər.**

**Körpələr 9 aylıq olanda ailələri tərəfindən müalicə olunmaq üçün Türkiyəyə gətirilib.**

**Hazırda 16 aylıq olan əkizlər türkiyəli həkimlərin uğurlu əməliyyatları sayəsində sağlam böyüyürlər. (medicina.az)**

**Həkimlər əkizlərin bundan sonra həyatlarını sağlam şəkildə davam etdirə biləcəyini deyiblər.**



# İmmuniteti gücləndirir

### Qreyfurtu xərçənglə döyüşən vitaminlər ordusu adlandırırlar

**Məlahət Rzayeva**

**Bütün meyvələr kimi qreyfurt da özünəməxsus üstünlüklərə malikdir. Qreyfurtu xərçənglə döyüşən vitaminlər ordusu da adlandırırlar. Amma dahi Nizaminin "bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir su da" hikmətini unutmamalıyıq. Qreyfurt da həddindən artıq yeyilərsə, orqanizmə ziyan verə bilər.**

Mütəxəssislər ondan necə istifadə etməyi öyrədir. "Milliyyet.com"da yer alan məlumatda bildirilir ki, xəstəliklərdən qorunmaq və immuniteti gücləndirmək üçün tövsiyə edilən qreyfurt tərkibindəki C vitamin səbəbindən güclü antioksidan təsirə malikdir. Digər narıncı meyvələr kimi qreyfurtun da kalorisi azdır və demək olar ki, tərkibində yağ adına bir şey yoxdur. Ondan çəkinmədən istifadə edə bilərsiniz. Lakin müalicə müddətində olanlar qəbul etdikləri dərmanların tərkibinə diqqət etməlidir. Qreyfurt bəzi dərman preparatları ilə reaksiyaya daxil ola bilir. Buna səbəb meyvənin tərkibindəki naringi digər fitokimyəvi maddələrlə reaksiyaya daxil olur. Qreyfurt bəzi dərmanların təsirini azalda, bəzilərinin təsirini isə artıra bilər. Bu haqda dietoloq Merve Sır məlumat verib. Dietoloq qeyd edir ki, qreyfurt bol miqdarda vitaminlərə sahib olmasıyla yanaşı toxluq hissi verən liflər və pectin maddəsinə də malikdir. Çəhrayı rəngli qreyfurtlar sarı rənglilərdən



daha dadlıdır. Həmçinin hüceyrələri qoruyan karotenoid - likopen baxımından da daha zəngindir. Qreyfurtun çəhrayı rəngi likopendən qaynaqlanır. Likopen isə kardioloji xəstəliklər və xərçəngə yaxalanma riskini azaldır. Qreyfurtdakı C vitamin toxumalara da müsbət təsir edir. 3 qreyfurt günlük 100 milliqram C vitamini ehtiyacını ödəyir. Amma orqanizm təkcə bununla kifayətlənə bilməz. Xolesterola qarşı, qəlbritm pozğunluqları, qan durulducu, psixoloji xəstəliklərdə istifadə edilən dərmanlar varsa, qreyfurta qarşı diqqətli olmaq lazımdır. Şəkər xəstələri də qreyfurt məsələsində həkim məsləhətinə qulaq asmalıdır. Qreyfurtun çəyirdəyi də faydalıdır. Bu çəyirdəklər antibikrobial təsirə malikdir və ən yaxşı təbii antibiotik hesab edilir. Qreyfurt çəyirdəyi ekstraktı ilə sardunya yağı qarışığının MRSA virusuna qarşı güclü antibakterial təsiri malik olduğu qeyd edilir. Qreyfurt çəyirdəyi, həmçinin təzyiqsalıcı kimi istifadə edilir.

# Bred Pitt bir daha evlənmək istəmir

### Hollivud ulduzu qadınlarla tanışlıq və görüşü prioritet hesab etməyi dayandırıb



**Uzun müddət birlikdən sonra məşhur aktrisa Ancelina Colidən ayrılan Hollivud ulduzu Bred Pitt şəxsi həyatdan imtina etməyi və bir daha evlənməməyi düşünür.**

Oxu.az xəbər verir ki, bu barədə ulduzun yaxınları bildiriblər.

57 yaşlı sənətçinin tanışları əmin edirlər ki, o, keçmiş həyat yoldaşı ilə boşanma prosesindən sonra üzərinə düşən böyük məsuliyyət yükü səbəbindən qadınlarla tanışlıq və görüşü prioritet hesab etməyi dayandırıb. Onun bir neçə görüşə getdiyi, lakin bunun ciddi bir şeyə səbəb olmadığı bildirilir. Bundan əlavə, Pitt Coli ilə birgə övladlarının qəyyumluğu barədə məhkəmədə çəkişməyə davam edir.

"Bred çox işləyir və mümkün qədər pozitiv olmağa çalışır. Ancelina ilə müharibə həqiqətən də Bredə öz təsirini göstərdi. Xoşbəxtlikdən, onun inanılmaz iradə gücü və gözəl dəstək qrupu var", - deyə tanışlarından biri bildirib.

# Eşq iddiaları öz təsdiqini tapıb

### Serenay Umut Evirgenlə sevgilidir



**Aktrisa Serenay Sarıkaya ilə rejissor Umut Evirgen arasında yaşanan eşq iddialar öz təsdiqini tapıb.**

**Axşam.az xəbər verir ki, daha əvvəl aktrisa tərəfindən təkzib edilən münasibət Umut tərəfindən doğrulanıb. Cütlük növbəti dəfə birlikdə görüntülənib. Bunun fərqinə varan Umut onları çəkməmələrini xahiş edərək, Serenayla sevgili olduqlarını etiraf edib.**

***Qeyd edək ki, cütlük bir neçə dəfə birlikdə görünüb. Bu da onlar arasındakı eşq macərası ilə bağlı iddiaları gücləndirib. Serenay bundan sonra verdiyi açıqlamada "Belə bir şey yoxdur. Dediyiniz kimi bunlar iddialardır. Bu xəbərlərdən bezdim" deyə, iddiaları yalanlamağa çalışmışdı.***